RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 176 (9343) 19 AVQUST 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



100

## Azərbaycan ilə Kolumbiya arasındakı siyasi əlaqələr məmnunluq doğurur



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Fernando Kuartas Ayalanın etimadnaməsini qəbul edib.

→ 2

## Azərbaycan Tacikistanla beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmonun etimadnaməsini qəbul edib.

→ 2

## KXDR ilə əlaqələr genişlənir



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sin Xon Çxolun etimadnaməsini qəbul edib.

→ 2

# Həqiqətin və ədalətin qarşısında hətta erməni hiyləsi də acizdir

### Hayastanın gözləntisi yenə gözündə qaldı



**Qarabağda və Şərqi Zəngəzurda darmadağın edilən separatçıların aldıqları ölümcül zərbələrə baxmayaraq, ayağa qalxmaq üçün siyasi hiylələrə sarılmaqdan savayı başqa çıxış yolu yoxdur. O üzdən onlar proseslərin sülh məcrasına yönəlməsinə əngəllər törədir və həmişə olduğu kimi, yenə də "zavallı erməni xalqı"nın iztirablarından dastanlar uydururlar. Sübut? Əgər xüsusən son aylar erməni KİV-nə nəzər salsanız, ağlınıza gəlməyən yalanların və "ittiham"ların şahidi olacaqsınız. Guya Qarabağ ermənilərinin ağızlarına aparmağa bir loxma çörəkləri yoxdur, xəstələr dava-dərmansız, körpələr pamperssiz qalıb. Guya Azərbaycan erməniləri əkib-becərməyə qoymur, bütün yolları bağlayıb. Bir sözlə, guya Qarabağ erməniləri ağır blokadaya alınıb. Nə deyə bilərik, hayların yalanına öyrəşmişik və belə getsə, dünyanın da öyrəşməsinə çox qalmayıb.**

→ 5

## Çinin "Phoenix" Televiziyasında Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsi yayımlanıb

Azərbaycanın neft və qaz tədarükçüsü olduğunu bildirən E.Əmirbəyov vurğulayıb ki, bu gün Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Daha geniş regionda baş verən geosiyasi hadisələr, əməkdaşlığın geoiqtisadi əhəmiyyətinin artması nəzərə alınaraq, ölkələrimizin rəhbərləri Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən yararlanmaq üçün daha geniş fəaliyyətin həyata keçirilməsi barədə razılığa gəliblər. Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan Şərq ilə Qərb arasında mühüm körpü rolunu oynayır.

→ 4

## Gücümüz haqlı olmağımızdadır

### Ağdama təşkil olunan səfər həqiqəti görmək üçün bir imkandır

Biz qurucu xalqıq, torpağa bağlı millətik, vətəncanlıyıq! Canımızla, qanımızla düşməndən qaytardığımız torpaqlarımızda quruculuq işlərinə başlamışıq. Məqsədimiz Qarabağın hər qarışını cənnətə döndərməkdir. Biz ermənilərin ölüm meydanına çevirdiyi Qarabağı quruculuq meydanına çevirdik. İndi işğaldan azad olunmuş torpaqlar böyük bir tikinti meydanına çevrilib. Biz düşmənlə düşmənçiliyi davam etdirmək istəmədik. Bitsin bu müharibə, son qoyulsun bu ədavətə deyib düşmənə sülh təklif etdik. Nadan isə nadanlığından əl çəkmir.

Mübarizəmiz haqq işidir, getdiyimiz yol ədalətli yoldur. Bizi bu yoldan nə erməni məkri, nə Fransanın riyakarlığı, nə də Hindistanın silahı durdura bilməz. Haqlı olduğumuz üçün bütün savaşlardan qalib çıxırıq. Elə gücümüz də haqlı olmağımızdadır.

→ 4

## Fransanın növbəti uğursuzluğu

### BMT Təhlükəsizlik Şurası rəsmi İrəvanla yanaşı, Parisin də arzusunu ürəyində qoydu

Azərbaycanın daxili işlərinə heç kimin qarışmamasını, xüsusilə, bununla bağlı Fransaya dəfələrlə xəbərdarlıqlar etməsinə baxmayaraq, Kalonna yenə ölkəmizin suveren ərazilərində sərhəd keçid məntəqəsi qurması məsələsinə müdaxilə etdi.

Bundan başqa, Fransa Xarici İşlər Nazirliyinin aprel ayında Ermənistan tərəfinin Laçın rayonu istiqamətində yerləşən mövqelərimizə qarşı təxribatı ilə əlaqədar həqiqətəuyğun olmayan bəyanatını da xatırlamaq olar.

→ 5

## İkiüzlü siyasət, məkrli niyyət

### Ağ Ev köhnə əməllərini yenə "işə salıb"

Azərbaycan regionun şəksiz lideridir və etibarlı tərəfdaşdır, bütün regional layihələrin təşəbbüskarı və əsas icraçısıdır. Rəsmi Bakının apardığı müstəqil xarici siyasət regionda sabitlik və sülhün bərqərar olmasına yönəlib, bu da məntiqlə ABŞ-nin də maraqlarına cavab verməlidir. Amma görünür ki, bu ölkənin bəzi dairələri "fərqli düşünür". Bütün hallarda Ağ Evin həm BMT TŞ-dəki mövqeyi, həm də "Vaşinqton Post"un qərəzli yanaşması göstərir ki, ABŞ köhnə əməllərindən hələ də əl çəkməyib.

→ 5

## *MN:* "Ordumuzun Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri atəşə tutulub"

Avqustun 18-i saat 10:20-də Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb. Bundan başqa, saat 11:55-dən 12:15-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocavənd və Füzuli rayonları istiqamətlərində yerləşən mövqeləri ilə üzbəüz mövqelərini gücləndirmək məqsədilə yerdəyişmə etməyə cəhd göstəriblər. Qanunsuz yerdəyişmənin qarşısını almaq məqsədilə bölmələrimiz tərəfindən zəruri tədbirlər görülüb.

## Terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Azərbaycanın dövlət sərhədini pozan şəxs həbs edilib

Avqustun 16-da Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu tərəfindən terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədinin pozulması faktı ilə bağlı Baş Prokurorluq tərəfindən cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

Baş Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, qeyd olunan qanunsuz əməllərin qarşısı alınan zaman saxlanılmış Ermənistan silahlı birləşmələrinin üzvü Voskanyan Qaqik Aşoti Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silah və döyüş sursatının qaçaqmalçılığı), 214.2.1-ci, 214.2.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silahdan istifadə etməklə terrorçuluq), 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah əldə etmə, daşıma, saxlama), 283.2.1-ci (zor tətbiq etməklə milli düşmənçiliyin salınmasına aşkar surətdə yönələn hərəkətlər etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən zor tətbiq etməklə Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda ibtidai istintaq davam etdirilir, nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

# Azərbaycan ilə Kolumbiya arasındakı siyasi əlaqələr məmnunluq doğurur



**Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Fernando Kuartas Ayalanın etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir Azərbaycan ilə Kolumbiya arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi, ölkələrimizin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin uğurla inkişaf etdiyini bildirdi. Minatəmizləmə sahəsində kolumbiyalı mütəxəssislərin Azərbaycanda fəaliyyət göstərdiyi qeyd olundu. Luis Fernando Kuartas Ayala ölkələrimiz arasında turizm sahəsində əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Səfir ölkəmizdə akkreditə edilmiş diplomatik korpusun nümayəndələrinin Ağdama səfərində iştirak etdiyini, həmin ərazilərdə aparılan bərpa-quruculuq işləri ilə yerində tanış olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Kolumbiya arasında siyasi əlaqələrin məmnunluq doğurduğunu vurğuladı, ölkələrimizin BMT, Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlıq etdiyini və daim bir-birini dəstəklədiyini dedi.

Prezident İlham Əliyev iqtisadi-ticari əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğuladı, mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsinin vacibliyini bildirdi.

# Azərbaycan Tacikistanla beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir



**Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmonun etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra səfirlə söhbət edən dövlətimizin başçısı Azərbaycan ilə Tacikistan arasında münasibətlərin qardaşlıq və dostluq xarakteri daşıdığını vurğuladı, hökumət üzvləri, parlamentlər, ictimai təşkilatlar xətti ilə daim təmasların və qarşılıqlı səfərlərin həyata keçirildiyini dedi.

Prezident İlham Əliyev Tacikistana dövlət səfərini məmnunluqla xatırladı, səfər çərçivəsində aparılmış müzakirələr zamanı müəyyənləşdirilmiş hədəflərə nail olunması istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı Tacikistana səfəri zamanı bu ölkənin və Düşənbənin inkişafının şahidi olduğunu vurğuladı.

Azərbaycan Prezidenti iqtisadiyyat, ticarət, nəqliyyat, logistika və digər sahələrdə ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi üçün bir çox təşəbbüslərin olduğunu diqqətə çatdırdı, ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin möhkəmləndiyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın və Tacikistanın regionları arasında əməkdaşlığın və şəhərlərarası birbaşa əlaqələrin yaradılmasının vacibliyini bildirdi.

Səfir ilk növbədə Tacikistan Prezidenti Emoməli Rəhmonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tacikistan Prezidentinə çatdırmağı xahiş etdi və Prezident Emoməli Rəhmonu Azərbaycana dövlət səfərinə dəvət etdi.

Səfir İlxom Abduraxmon dövlətimizin başçısının Tacikistana səfəri zamanı ikitərəfli əlaqələrin inkişafı baxımından çox vacib və səmərəli müzakirələrin aparıldığını vurğuladı, müxtəlif səviyyələrdə, o cümlədən parlament sədrlərinin səfərlərinin önəmini qeyd etdi, hökumətlərarası komissiyanın bu yaxınlarda iclasının keçirildiyini xatırladı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyini vurğuladı.

İlxom Abduraxmon Bakı ilə Düşənbə arasında birbaşa aviareyslərin açılmasının turizm sahəsində əməkdaşlığımızın inkişafına ciddi təkan verəcəyini qeyd etdi. O, Azərbaycanın sürətli inkişafının, Bakının gözəlliyinin və şəhərin memarlıq üslubunun onda dərin təəssürat hissi yaratdığını dedi.

# KXDR ilə əlaqələr genişlənir





**Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sin Xon Çxolun etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Qəbula görə dövlətimizin başçısına təşəkkürünü bildirən səfir Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədri Kim Çen Inın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədrinə çatdırmağı xahiş etdi.

Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdıran səfir xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1985-ci ildə Koreya Xalq Demokratik Respublikasına səfərinin məmnuniyyətlə xatırlandığını bildirdi. O, Azərbaycanın və Koreya Xalq Demokratik Respublikasının beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığının vacibliyini vurğuladı, iki ölkənin parlamentləri, eləcə də Yeni Azərbaycan Partiyası ilə Koreya Xalq Demokratik Respublikasının Əmək Partiyası arasında əməkdaşlığın inkişaf etdirilməsinin önəmini qeyd etdi. Sin Xon Çxol Azərbaycanın neft-qaz sahəsində zəngin təcrübəsini nəzərə alaraq, Koreya Xalq Demokratik Respublikasından olan tələbələrin Azərbaycanda bu sahədə təhsil almasının vacibliyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin qarşılıqlı maraq doğuran sahələrdə gələcəkdə də inkişaf edəcəyinə əminliyini bildirdi. Ulu Öndər Heydər Əliyevin 1985-ci ildə Koreya Xalq Demokratik Respublikasına səfərini xatırladan Prezident İlham Əliyev bu səfərin sonrakı illərdə - Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərliyi dövründə Koreya Xalq Demokratik Respublikası ilə əlaqələrin inkişafına təkan verdiyini qeyd etdi.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının 2019-cu ildə Azərbaycanda keçirilən Zirvə görüşü çərçivəsində Koreya Xalq Demokratik Respublikasının yüksəksəviyyəli nümayəndə heyəti ilə görüşünü məmnunluqla xatırladı, Qoşulmama Hərəkatı, BMT və digər beynəlxalq təşkilatçılar çərçivəsində ölkələrimiz arasında əlaqələri diqqətə çatdırdı.

Dövlətimizin başçısı parlamentlər, hakim partiyalar arasında münasibətlərin və mədəni əlaqələrin genişləndirilməsinin vacibliyini vurğuladı.

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829, № 10, maddə 1125, № 12, maddələr 1366, 1379, 1389; 2023, № 1, maddələr 11, 19, № 2, maddə 210, № 3, maddələr 337, 463; Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 867-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.0.10-cu və 24-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"2.0.10. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına icazənin verilməsi;";

**"Maddə 24. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına icazənin verilməsi üçün dövlət rüsumunun dərəcələri**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 24.1. Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsi | 125 manat |
| 24.1.1. hər bir nəqliyyat vasitəsi üçün buraxılış kartının verilməsi | 25 manat |
| 24.2. Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün operatorlara beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsi | 250 manat |
| 24.2.1. hər bir nəqliyyat vasitəsi üçün buraxılış kartının verilməsi | 75 manat |
| 24.3. Taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsi | 3000 manat |

1.2. 25-ci maddə ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında və "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 978-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767; 2006, № 12, maddə 1057; 2008, № 9, maddə 798; 2012, № 6, maddə 547, № 12, maddə 1271; 2013, № 11, maddə 1327, № 12, maddə 1510; 2014, № 4, maddə 360; 2016, № 1, maddə 43, № 5, maddə 883, № 9, maddə 1463, № 11, maddə 1807; 2017, № 3, maddə 370, № 5, maddə 757, № 7, maddə 1377, № 10, maddə 1804, № 12 (I kitab), maddə 2293; 2018, № 6, maddələr 1231, 1239, № 7 (I kitab), maddə 1489, № 12 (I kitab), maddə 2552; 2019, № 1, maddə 95, № 6, maddə 1044, № 7, maddə 1248, № 11, maddə 1699; 2020, № 5, maddə 561; 2021, № 7, maddə 735, № 12, maddə 1401; 2022, № 5, maddə 441, № 12, maddə 1404) 2.2-ci bəndindən ", 25.2-ci, 25.2.1-ci və 25.2.2-ci" sözləri çıxarılsın.

2. "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddə 870; 2014, № 12, maddə 1630; 2016, № 7, maddə 1315; 2018, № 8, maddə 1678; 2019, № 11, maddə 1699; 2022, № 5, maddə 521, № 8, maddə 900) 2.5-ci bəndi ləğv edilsin.

3. Bu Fərman 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2023-cü il*

# Masallı rayonunun Ləngan-Əhmədli-Təklə-Köçəkli, Bala Təklə-Şərəfə və Öncəqala-Hüseynhacılı-Viləş-Xallıcalı-Dəlləkli-Qədirli avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əlli bir min nəfər əhalinin yaşadığı 27 yaşayış məntəqəsini birləşdirən Ləngan-Əhmədli-Təklə-Köçəkli, Bala Təklə-Şərəfə və Öncəqala-Hüseynhacılı-Viləş-Xallıcalı-Dəlləkli-Qədirli avtomobil yollarının tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.8-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 14,6 milyon (on dörd milyon altı yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2023-cü il*

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4, maddə 645, № 6, maddələr 1165, 1192, № 7 (I kitab), maddələr 1432, 1436, 1439; 2019, № 1, maddə 46, № 6, maddə 997, № 7, maddə 1183, № 8, maddə 1376; 2020, № 5, maddə 521, № 7, maddələr 827, 847, № 12 (I kitab), maddə 1425; 2021, № 4, maddə 305, № 6 (I kitab), maddə 543, № 8, maddə 897; 2022, № 8, maddə 831, № 11, maddə 1232; 2023, № 2, maddələr 150, 175, № 4, maddə 454) 6-1-ci maddəsinin adından, həmin maddənin I və II hissələrindən "və ölkədaxili (şəhərlərarası və rayonlararası)" sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 783-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli, 17 iyul tarixli 2221 nömrəli, 18 iyul tarixli 2228 nömrəli və 1 avqust tarixli 2272 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 70-1 - 70-7-ci hissələr əlavə edilsin:

"70-1. Məcəllənin 598.1.1, 598.1.2, 598.1.4 - 598.1.6, 598.4 və 598.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Mərkəzi Bankı adından - bu Siyahının 37.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

70-2. Məcəllənin 598.1.3, 598.6 və 598.7-ci (Məcəllənin 598.1.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətaya münasibətdə) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti adından - İdarə Heyətinin sədri, onun müavinləri və departament rəhbəri.

70-3. Məcəllənin 598.2 və 598.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

70-3.1. maliyyə institutlarına münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı adından - bu Siyahının 37.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-3.2. notariuslara münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından - ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Ədliyyə sahəsində xidmətlər baş idarəsinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının ədliyyə sahəsində xidmətlər üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri;

70-3.3. rieltorlar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslərə, belə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-3.4. vəkillərə münasibətdə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası adından - Rəyasət Heyətinin sədri, onun müavinləri.

70-4. Məcəllənin 598.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar (Məcəllənin 598.1.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xəta istisna olmaqla) haqqında işlər üzrə protokol:

70-4.1. notariuslara münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından - bu Siyahının 70-3.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-4.2. rieltorlar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslərə, belə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-4.3. vəkillərə münasibətdə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası adından - bu Siyahının 70-3.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

70-5. Məcəllənin 598.8-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

70-5.1. qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından - bu Siyahının 36.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-5.2. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından - bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

70-6. Məcəllənin 598.9-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

70-6.1. maliyyə monitorinqi orqanının verdiyi yazılı göstərişlərin vaxtında və ya tam icra edilməməsinə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti adından - bu Siyahının 70-2-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

70-6.2. digər hallarda Azərbaycan Respublikasının Auditorlar Palatası adından - Auditorlar Palatasının sədri, onun müavini, Aparatın rəhbəri.

70-7. Məcəllənin 598.10-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

70-7.1. maliyyə institutlarına münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı adından - bu Siyahının 37.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.2. notariuslara münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından - bu Siyahının 70-3.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.3. rieltorlar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslərə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.4. qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından - bu Siyahının 36.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.5. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından - bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.6. vəkillərə münasibətdə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası adından - bu Siyahının 70-3.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.7. auditor xidməti göstərən şəxslərə münasibətdə Azərbaycan Respublikasının Auditorlar Palatası adından - bu Siyahının 70-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

70-7.8. digər fiziki şəxslərə və qurumlara münasibətdə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti adından - bu Siyahının 70-2-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 32.1-ci bəndində dəyişiklik edilməsi ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2023-cü il*

# "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"nın təsdiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 5, maddə 848, № 7, maddə 1229, № 8, maddə 1398; 2020, № 5, maddə 549, № 7, maddə 868, № 11, maddə 1362, № 12 (I kitab), maddə 1469; 2021, № 6 (I kitab), maddə 571, № 11, maddə 1218, № 12, maddə 1364; 2023, № 2, maddə 244; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2235 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "26.5-3-cü," sözlərindən sonra "27.4-cü," sözləri, "44.2-ci maddəsinin" sözlərindən sonra "birinci cümləsində (xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması qaydalarının müəyyən olunması üzrə) və" sözləri əlavə edilsin;

2.2. 2.2-ci bənddən "27.4-cü," sözləri çıxarılsın və həmin bəndə "44.2-ci maddəsinin birinci cümləsində" sözlərindən sonra "(Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması qaydalarının müəyyən olunması üzrə)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2023-cü il*

# Çinin "Phoenix" Televiziyasında Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsi yayımlanıb

Çinin "Phoenix" Televiziyasında Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsi yayımlanıb.




AZƏRTAC xəbər verir ki, Prezidentin xüsusi nümayəndəsi müsahibədə Azərbaycan-Çin münasibətlərinin sürətli inkişafı, əməkdaşlığın daha da dərinləşdirilməsi imkanları, Cənubi Qafqaz regionunda hazırkı vəziyyət və digər məsələlər barədə ətraflı məlumat verib. Azərbaycan ilə Çin arasında yüksəksəviyyəli siyasi dialoqun mövcudluğunu vurğulayan E.Əmirbəyov dövlətlərimizin başçıları İlham Əliyev ilə Si Cinpinin bir neçə dəfə görüşdüklərini xatırladıb, hər iki liderin şəxsi münasibətlərinin əlaqələrimizin inkişafına da mühüm təsir göstərdiyini deyib.

Prezidentin xüsusi nümayəndəsi Çinə səfərinin məqsədinin ölkələrimiz arasında siyasi dialoqun daha da dərinləşdirilməsi, eləcə də Çin tərəfinin Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları barədə məlumatlandırılması olduğunu vurğulayıb: "Biz Çinin beynəlxalq arenada necə əhəmiyyətli rol oynadığını bilirik. Çin BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Çin Azərbaycan üçün dost ölkədir. Azərbaycan da Çini özünün strateji tərəfdaşı hesab edir".

Ötən il Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladan xüsusi nümayəndə qeyd edib ki, ölkələrimizin liderlərinin şəxsi münasibətləri sayəsində bu gün iki dövlət arasında yüksəksəviyyəli əlaqələr mövcuddur. Ə.Əmirbəyov Çin xalqı üçün yeni cəlbedici səyahət məkanı kimi Azərbaycanın imkanlarından bəhs edərək, iki xalq arasında təmasların inkişafı baxımından birbaşa aviareyslərin əhəmiyyətini xüsusi vurğulayıb.

Azərbaycanın neft və qaz tədarükçüsü olduğunu bildirən E.Əmirbəyov vurğulayıb ki, bu gün Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Daha geniş regionda baş verən geosiyasi hadisələr, əməkdaşlığın geoiqtisadi əhəmiyyətinin artması nəzərə alınaraq, ölkələrimizin rəhbərləri Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən yararlanmaq üçün daha geniş fəaliyyətin həyata keçirilməsi barədə razılığa gəliblər. Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan Şərq ilə Qərb arasında mühüm körpü rolunu oynayır. Uğurla fəaliyyət göstərən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi, Xəzər dənizini Qara dəniz ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi mühüm infrastrukturlar Orta dəhliz layihəsinin həyata keçirilməsində böyük rol oynaya bilər. Bunlar həmçinin Azərbaycanın da tamamilə dəstəklədiyi "Bir kəmər, bir yol" təşəbbüsü ilə əlaqələndirilə bilər. Orta dəhlizin "Bir kəmər, bir yol" təşəbbüsü ilə əlaqələndirilməsi iqtisadi-ticari əlaqələrin, logistika imkanlarının, həmçinin turizmin daha da inkişafına mühüm töhfə verəcək.

Müsahibədə Azərbaycanda Çin dilinin öyrənilməsinə artan maraqdan da bəhs olunub. Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi vurğulayıb ki, bu gün azərbaycanlı gənclərin bir çoxu bu dili öyrənməyə maraq göstərir. Gözəl Çin ölkəsinə səyahət edərək Çin dili və mədəniyyətini dərindən öyrənməyə can atan azərbaycanlı tələbələrin sayına nəzər salsaq görərik ki, bu sahədə inkişaf göz qabağındadır. Azərbaycanda Çin Dili mərkəzləri uğurla fəaliyyət göstərir.

E.Əmirbəyov müsahibəsində Azərbaycanın 1990-cı illərdən başlayaraq Ermənistanın təcavüzkar siyasətinə məruz qaldığını və nəticədə torpaqlarımızın 20 faizinin otuz ilə yaxın müddətdə işğal olunduğunu vurğulayıb. Bildirib ki, bu işğal nəticəsində bir milyondan çox azərbaycanlı doğma yurdlarından didərgin düşüb, ölkə ərazisinin səkkizdəbiri tamamilə dağıdılıb. Lakin Azərbaycan İkinci Qarabağ müharibəsində şanlı qələbə qazanaraq tarixi torpaqlarını işğaldan azad edib. Tarixi ədaləti, ərazi bütövlüyünü bərpa edən Azərbaycan düşmənçilik səhifəsini çevirmək, Ermənistanla mehriban və dinc qonşuluq münasibətləri qurmaq üçün beş əsas prinsipə əsaslanan sülh gündəliyi təklif edib. Münasibətlərin normallaşdırılması üçün hazırda gözəl şanslar var. Çünki Azərbaycan regionun daha yaxşı gələcəyə layiq olduğunu hesab edir.

Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində danışıqlar prosesi barədə məlumat verən xüsusi nümayəndə prosesin bu ilin mayından daha da intensivləşdiyini vurğulayıb, lakin bunun davamlı sülhə nail olmaq üçün yetərli olmadığını bildirib: "Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı bəyanatı sülh prosesində nikbinlik yaradır. Bu mühüm element onu deməyə imkan verir ki, əsas sazişi imzalamaqdan çox da uzaqda deyilik".

E.Əmirbəyov doğma torpaqlarından zorla qovulmuş və etnik təmizlənməyə məruz qalmış yüz minlərlə azərbaycanlı keçmiş məcburi köçkünün geri qayıtmaları prosesi barədə də məlumat verib, Böyük qayıdış prosesinə uğurla başlandığını vurğulayıb.

Prezidentin xüsusi nümayəndəsi bildirib ki, Azərbaycan Ermənistandan üzərinə götürdüyü bütün öhdəlikləri tam şəkildə yerinə yetirməsini gözləyir. Ermənistan ilk növbədə silahlı qüvvələrinin hissələrini Azərbaycanın suveren ərazisindən tamamilə çıxarmalıdır. Üçtərəfli Bəyanatın imzalanmasından iki il yarım keçməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələrinin 10 min nəfərlik şəxsi heyəti hələ də Azərbaycanın Qarabağ regionunda qeyri-qanuni qalmaqdadır. Ermənistan silahlı qüvvələrini Azərbaycanın suveren ərazisindən nə qədər tez çıxararsa, sülh sazişi bir o qədər qısa müddətdə imzalana bilər.

# Gücümüz haqlı olmağımızdadır

## Ağdama təşkil olunan səfər həqiqəti görmək üçün bir imkandır



Ermənilər işğal etdikləri torpaqları 30 ildə dağıdıb viran qoyub, xarabazara çeviriblər. "Tikdikləri", "qurduqları" yalnız hərbi blindajlar, beton bunkerlər olub ki, o da Azərbaycan əsgərinin vətən sevgisinin qarşısında duruş gətirə bilmədi... Ermənilərin 30 il işğal altında saxladıqları, hər tərəfini minaladıqları, qurduqları sədləri aşaraq torpaqları canımızla, qanımızla geri aldıq...

Dünya yaranandan çox müharibələr olub. Amma dünya hələ belə vəhşiliyə şahidlik etməyib. Heç bir işğalçı dövlət zəbt etdiyi əraziləri bu dərəcədə dağıtmayıb, viran qoymayıb. Hətta 1941-1945-ci illərdə alman faşistləri işğal etdikləri şəhər və kəndlərdə dinc əhaliyə dəymirdilər. İnsanlar öz evlərində yaşayıb fəaliyyət göstərirdilər.

Vətən müharibəsində qazandığımız qələbədən sonra dünya ictimayyəti erməniliyin iç üzünü gördü, xislətinə bələd oldu, mahiyyətini tanıdı. Onların etdikləri vəhşiliklər, xarabazara çevirdikləri yurd yerləri dil açıb danışdı, bu torpağın sahibi olmadıqlarını tam olaraq dünyaya göstərdi. Bu vəhşilikləri görən insanlar, gələn qonaqlar, xarici jurnalistlər, diplomatlar, səyyahlar erməni azğınlığının izlərini gördükcə dəhşətə gəldiklərini ifadə etdilər.

Biz qurucu xalqıq, torpağa bağlı millətik, vətəncanlıyıq! Canımızla, qanımızla düşməndən qaytardığımız torpaqlarımızda quruculuq işlərinə başlamışıq. Məqsədimiz Qarabağın hər qarışını cənnətə döndərməkdir. Biz ermənilərin ölüm meydanına çevirdiyi Qarabağı quruculuq meydanına çevirdik. İndi işğaldan azad olunmuş torpaqlar böyük bir tikinti meydanına çevrilib. Biz düşmənlə düşmənçiliyi davam etdirmək istəmədik. Bitsin bu müharibə, son qoyulsun bu ədavətə deyib düşmənə sülh təklif etdik. Nadan isə nadanlığından əl çəkmir. Müharibədə uduzub rəzil duruma düşsə də, arxasında duranların sözü ilə əleyhimizə oyun oynayır, böhtan dolu kampaniya aparır. Hərb meydanındakı məğlubiyyətin acısını apardığı informasiya müharibəsində alacağını zənn edir. Dünyaya haray salıb "blokada"da olduğunu, Qarabağda "humanitar böhran" yaşandığını iddia edir. Hələ bir "humanitar böhran" görüntüsü yaratmaq üçün "baş sındırıb", "ağıl işlədib" iş də aparır. Azərbaycanın guya "əzazil"liyini, "acımasız"lığını dünyaya car çəkib "hümanitar yük dolu" avtomobil konvoyunu gətirib sərhədlərimizə yığır. Halbuki Azərbaycan əvvəlcədən onlara irihəcmli daşımalar üçün Ağdam-Xankəndi yolunu təklif edib. Azərbaycanın xoşməramlı təklifi ilə razılaşmaq əvəzinə, yolu beton piltələrlə bağlayırlar. Nə qədər absurd bir düşüncə sahibi olasan ki, bir yandan acından öldüyünü iddia edəsən, digər yandan da yolu kəsəsən.

Artıq dünya erməniləri tanıyır. Saxtakar, yalançı, "humanitar böhran" şousu yaradıb siyasi manipilyasiya etdiyini bilir. Azərbaycanın apardığı ardıcıl siyasət erməniləri "əlisilahsız" qoyub. Erməni yalanları dil açsa da, daha yeriyə bilmir. Ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların, diplomatik korpusun nümayəndələrinin Qarabağa, erməni faşizminin işğalından azad olunmuş torpaqlara vaxtaşırı səfərləri təşkil olunur. Bu səfərlərdə iştirak edənlər mənfurların vəhşiliyinin izlərini görməklə yanaşı, torpağımıza sahiblik hissimizə, gedən abadlıq-quruculuq işlərinə də şahid olurlar.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üzvləri və hərbi nümayəndələr, eləcə də beynəlxalq təşkilatların nümayəndələrinin Qarabağa növbəti səfəri avqustun 16-da baş tutub. Ağdama səfər edən heyətdə 41 ölkə və 13 beynəlxalq təşkilatdan 100-ə yaxın diplomat və hərbçi iştirak edib. Səfəri təşkil etməkdə əsas məqsəd başda Ağdam-Xankəndi avtomobil yolu, həmçinin Bərdə-Ağdam dəmir yolu olmaqla Qarabağ iqtisadi zonasının hazırkı yol infrastruktur potensialı ilə diplomatları tanış etmək idi.

Səfər çərçivəsində diplomatlar Ağdam şəhər 1 saylı tam orta məktəbində, Muğam Mərkəzi və yaşayış komplekslərində aparılan işlərlə də tanış olublar. Diplomatlara 30 ilə yaxın davam etmiş işğal dövründə ermənilərin Ağdamda törətdikləri dağıntılar haqqında məlumat verilib. Onlar hazırda davam edən genişmiqyaslı quruculuq işləri və yol-infrastruktur, kommunikasiya, şəhərsalma prosesləri ilə də yaxından tanış olublar.

Sözsüz ki, səfərdə iştirak edən diplomatlar ermənilərin törətdikləri vəhşiliklər, vandalizm haqqında ölkələrinə daha dəqiq məlumatlar verəcəklər. Bu cür tədbirlərin keçirilməsi Ermənistanın 30 il ərzində formalaşdırdığı dezinformasiya mənzərəsinin alt-üst edilməsinə, dünya erməniliyinin əsl simasının aydın şəkildə ifşa olunmasına, müharibə dövründə törədilmiş vandalizmi, normallaşma prosesində Ermənistanın və onun yaratdığı qondarma separatçı rejimin fitnəkar mövqeyinin əsassızlığını tam şəkildə sübuta yetirilməsinə xidmət edir. Bu baxımdan Ağdama təşkil olunan səfər həqiqəti görmək istəyənlər üçün bir fürsət idi.

Bilirik ki, həqiqəti həmişə gözardı edərək yalan iddialara qulaq verənlərin də sayı heç az deyil. Ölkəmizin Ağdama səfərlə bağlı dəvətinə Fransa, İspaniya, Venesuela kimi ölkələr, ümumiyyətlə, reaksiya verməyiblər. Təbii ki, Fransa nümayəndəsinin səfərdə iştirak etməyənlərin sırasında olması bizi təəccübləndirmir. 30 illik münaqişə dövründə biz bu ölkədən yalnız siyasi riyakarlıq, problemin həllinə mane olmaq cəhdini görmüşük. Hazırkı durumda da Fransanın mövqeyi bəllidir. Ermənistanın baş naziri dəfələrlə Qarabağın Azərbaycanın ərazisi olduğunu təsdiq etsə də, Fransa Prezidenti öz sərsəmləmələrində Qarabağı Ermənistan ərazisi kimi göstərməkdən çəkinmir. Guya bu ölkənin səfiri Ağdama gedən diplomatlar arasında olsa idi nə dəyişəcəkdi? Güman etmək olmaz ki, ermənilərin törətdikləri vandalizmi görüb utanardı. Səfərdə iştirakçı olamayan diplomatlar arasında Ermənistanı silahlandıran Hindistan da var. Görünən budur ki, bu ölkələrin hirsi, hikkəsi onlara həqiqəti görməyə, eşitməyə imkan vermir.

Təəssüf doğuran odur ki, səfərə qatılmayan diplomatlar sırasında bizim dost bildiyimiz ölkələrin də adı keçir. Başı Fransa işğalından müsibətlər çəkən, genosidlə üzləşən Əlcəzairin diplomatik nümayəndəsinin tədbirə qatılmaması isə bir qədər təəccüb doğurur.

Mübarizəmiz haqq işidir, getdiyimiz yol ədalətli yoldur. Bizi bu yoldan nə erməni məkri, nə Fransanın riyakarlığı, nə də Hindistanın silahı durdura bilməz. Haqlı olduğumuz üçün bütün savaşlardan qalib çıxırıq. Elə gücümüz də haqlı olmağımızdadır.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

# "Qardaşlaşmış Qarabağ məktəbləri" layihəsi başa çatıb

Azərbaycan Diasporuna Dəstək Fondunun Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Qardaşlaşmış Qarabağ məktəbləri" layihəsinə yekun vurulub.



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, layihə avqustun 7-13-də İsveçrədə baş tutub. Layihə çərçivəsində Azərbaycanın işğaldan azad edilmiş Ağdam, Şuşa, Laçın, Cəbrayıl, Füzuli, Zəngilan şəhər məktəblərinin şagirdləri İsveçrədə fəaliyyət göstərən "Qarabağ" həftəsonu məktəbinin şagirdləri ilə birlikdə "Juvenat" düşərgəsində yerləşiblər. Layihədə Azərbaycandan 17 şagird və 2 müəllim, İsveçrədən 11 şagird və 2 müəllim iştirak edib. Düşərgəyə "Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi"nin rəhbəri Qasım Nəsirov rəhbərlik edib.

Düşərgə zamanı şagirdlər Qarabağın tarixi haqqında məlumatlandırılıb, mədəni-maarifləndirici panellərdə iştirak ediblər, Bern, Balenberq və digər şəhərlərin görməli yerləri ilə tanış olublar. Həmçinin İsveçrə parlamentinə, müxtəlif muzeylərə səfər ediblər, təbiət gəzintiləri, əyləncəli oyunları və təcrübə mübadiləsi ilə məşğul olublar.

Xatırladaq ki, bu layihənin icrasına ötən ildən başlanılıb. Layihə çərçivəsində İsveçrədə fəaliyyət göstərən həftəsonu məktəbinin şagirdləri ilə məcburi köçkün və şəhid ailələrinin övladları 2022-ci il iyulun 18-24-də Bakının Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən "Cırtdan" Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzində təlimlər keçiblər.

Layihədə İsveçrədən 10 şagird və 2 təlimçi, yerli məktəblərdən 14 şagird və 2 təlimçi iştirak edib. Hər iki layihə "Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi"nin rəhbəri Qasım Nəsirov, Laçın rayon Kamallı kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi Ülviyyə Quluyeva, Ağdam rayon 88 nömrəli məktəbin ingilis dili müəllimi Ceyhunə Əliyeva və İsveçrədə Qarabağ məktəbinin müəllimi Leyla Bağırzadənin iştirakı ilə baş tutub. Bir həftə ərzində mədəni-maarifləndirici panellərdə iştirak edən şagirdlərin ölkəmizin dilbər guşələrinə, muzeylərə səyahəti təmin edilib. Eyni zamanda daimi kommunikasiya və şəbəkələşmə ilə yanaşı, Azərbaycan dili təlimləri keçirilib.

Bu layihə Prezident İlham Əliyevin ölkəmizin mədəniyyət paytaxtı Şuşada keçirilmiş Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı həftəsonu məktəblərinin açılması istiqamətində fəaliyyətin gücləndirilməsi, bütün Azərbaycan vətəndaşlarını birləşdirən ana dilinin daim təbliğ olunması tövsiyələri çərçivəsində gerçəkləşdirilib.

Xatırladaq ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və tapşırığı ilə bir neçə ildir xarici ölkələrdə həftəsonu Azərbaycan məktəblərinin qurulması prosesinə başlanılıb. Bu məktəblərin məqsədi azərbaycanlı uşaqlara ana dilini, ədəbiyyatını, tarixini, mədəniyyətini tədris etməklə yanaşı, milli kimliklərini qoruyub saxlamaq naminə ölkəmizlə bağlı həqiqətləri də onlara indidən aşılamaqdır.

# Qərbi Azərbaycan İcması ABŞ-nin Ermənistandakı səfirinin İstisuya səfəri ilə bağlı bəyanat yayıb

Amerika Birləşmiş Ştatlarının Ermənistandakı səfirliyinin məlumat verdiyi kimi, bu gün səfir Kristina Kvien İstisu (Cermuk) qəsəbəsinə səfər edib. Biz xanım səfirin İstisuya hansı məqsədlə səfər etməsi barədə məlumata malik deyilik. Lakin səfirin İrəvandan gələrkən İstisu daxil olmaqla əvvəllər azərbaycanlıların yaşamış olduqları, məscidlərinin, qəbiristanlıqlarının dağıdıldığı, təhqir edildiyi yaşayış məskənlərindən keçdiyini bilirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda qeyd edilib. "Bilmək istərdik ki, özünü dünyada insan hüquqlarının müdafiəçisi kimi qələmə verən ABŞ-nin Ermənistanda, - etnik təmizləmə yolu ilə monoetnik məkana çevrilmiş bir dövlətdə, - səfiri olan xanım Kvienin akkreditə olunduğu ölkədə tüğyan edən irqçilik və qeyri-tolerantlığın aradan qaldırılması və azərbaycanlıların Ümumdünya İnsan Hüquqları Bəyannaməsində nəzərdə tutulan qayıdış hüquqlarının reallaşdırılması üçün nələr edir.

Biz həmçinin fürsətdən istifadə edərək, ABŞ tərəfini etnik və dini ayrı-seçkilik qoymadan insan hüquqlarına dəstək verilməsi xahişi ilə Dövlət katibi Entoni Blinkenə göndərdiyimiz müraciətə cavab verməyə çağırırıq", - deyə icmanın bəyanatında vurğulanıb.

# *İcma:* "Ermənistanda bir nəfərin, sadəcə, türkcə danışmasına görə həbsini kəskin şəkildə qınayırıq"

"Biz, Ermənistandan zorla qovulmuş azərbaycanlıları təmsil edən Qərbi Azərbaycan İcması, bu günlərdə Ermənistanın Karvansara (İcevan) rayonunda bir nəfərin, sadəcə, türkcə danışmasına görə hücuma məruz qalmasını və onun polis tərəfindən həbs olunmasını kəskin şəkildə qınayırıq. Bu insident, Ermənistandan bütün azərbaycanlıların 1987-1991-ci illərdə zorla qovulmasının əsas səbəbi olan ölkənin dövlət siyasətində və cəmiyyətində dərin kök salmış irqçilik və ksenofobiyanın növbəti bir bədnam göstəricisidir".

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı yaydığı bəyanatda bildirilib.

"Biz dünya ictimaiyyətini bu insidenti pisləməyə və Ermənistanın irqçi siyasətinə son verməsi, ölkədə tolerant mühit yaratması və qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə qayıtmasını təmin etməsi üçün bu ölkəyə təzyiq göstərməyə çağırırıq.

Biz həmçinin BMT-nin İnsan hüquqları üzrə Ali Komissarını, irqçiliyin, irqçi ayrı-seçkiliyin, ksenofobiyanın və əlaqədar qeyri-tolerantlığın müasir formaları üzrə BMT-nin xüsusi məruzəçisini, "Human Rights Watch" və "Amnesty International" təşkilatlarını sözügedən insidentlə məşğul olmağa və təqibə məruz qalan şəxsin hüquqlarını müdafiə etmək üçün lazımi addımları atmağa çağırırıq", - deyə Qərbi Azərbaycan İcmasının bəyanatında vurğulanıb.

# Azərbaycan diplomatiyasının daha bir qələbəsi

## Həqiqətin və ədalətin qarşısında hətta erməni hiyləsi də acizdir

### Hayastanın gözləntisi yenə gözündə qaldı

**BMT Təhlükəsizlik Şurasında Azərbaycanın Qarabağ bölgəsində vəziyyətə dair aparılmış müzakirələr dünyanın müxtəlif kütləvi informasiya vasitələrinin gündəmindən düşmür.**



Elə ölkəmizin KİV-ində də bu barədə geniş müzakirələr aparılır. Ermənistan mətbuatı da susmur. Məğlubiyyətə öyrəşmiş haylar səslərinin yoğun yerinə salıb bir yandan Paşinyana döşəyir, bir yandan da yenə (guya) nə isə qazandıqlarından dəm vururlar.

Görünür, Qarabağda və Şərqi Zəngəzurda darmadağın edilən separatçıların aldıqları ölümcül zərbələrə baxmayaraq, ayağa qalxmaq üçün siyasi hiylələrə sarılmaqdan savayı başqa çıxış yolu yoxdur. O üzdən onlar proseslərin sülh məcrasına yönəlməsinə əngəllər törədir və həmişə olduğu kimi, yenə də "zavallı erməni xalqı"nın iztirablarından dastanlar uydururlar. Sübut? Əgər xüsusən son aylar erməni KİV-nə nəzər salsanız, ağlınıza gəlməyən yalanların və "ittiham"ların şahidi olacaqsınız. Guya Qarabağ ermənilərinin ağızlarına aparmağa bir loxma çörəkləri yoxdur, xəstələr dava-dərmansız, körpələr pamperssiz qalıb. Guya Azərbaycan erməniləri əkib-becərməyə qoymur, bütün yolları bağlayıb. Bir sözlə, guya Qarabağ erməniləri ağır blokadaya alınıb. Nə deyə bilərik, hayların yalanına öyrəşmişik və belə getsə, dünyanın da öyrəşməsinə çox qalmayıb.

Bunu BMT-nin Təhlükəsizlik Şurasında məlum məsələnin müzakirəsinin yekunları da təsdiqləyir. Baxmayaraq ki, həmin iclasda ermənilər tam məğlub olsalar da, Paşinyan erməni mətbuatında hamını Hayastanın hansısa "qələbə"yə nail olduğunu inandırmağa çalışır. Amma daxili auditoriyaya hesablanan bu iddia yaşdan quru çıxmağa cəhd etməkdən savayı bir şey deyil. Çünki Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev müzakirələr zamanı Ermənistan tərəfinin əsassız ittihamlarına elə tutarlı cavab vermiş, Ermənistanın Azərbaycana qarşı illər boyu tətbiq etdiyi əsl blokadanın və törətdiyi vəhşiliklərin mahiyyətini elə açıqlamışdır ki, iştirakçıların əsl həqiqətləri qəbul etməkdən savayı seçimləri qalmamışdır.

Y.Əliyev ətraflı izah etmişdir ki, Azərbaycana qarşı 30 illik qəddar işğalçılıq siyasəti yeridən Ermənistan beynəlxalq hüquqa rəğbət bəsləsəydi, BMT-nin məlum qətnamələrini və Təhlükəsizlik Şurasının sədrinin bir sıra bəyanatlarını qulaqardına vurmazdı. Nümayəndəmiz xatırlatmışdır ki, humanitar yüklərin daşınması ilə bağlı Qarabağda yaşayan ermənilərlə Yevlax şəhərində görüşün keçirilməsi razılaşdırılsa da, avqustun 5-də Ermənistan müxtəlif bəhanələrlə hər iki razılaşmadan son anda geri çəkilmişdir. Azərbaycanın Rusiya Federasiyası, ABŞ, Avropa İttifaqı və Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə sıx əməkdaşlıq etməsinə baxmayaraq, Ermənistan diplomatik səylərə bilərəkdən maneçilik törədir. Məruzəçimiz diqqətə çatdırmışdır ki, Hayastan məsələni həll etməklə yox, beynəlxalq səviyyədə xaos yaratmaq, regionda gərginliyi süni şəkildə alovlandırmaqla məşğuldur. Avqustun 5-də BQXK vasitəsilə humanitar yüklərin çatdırılmasına dair razılaşmanın pozulması da bu səbəbdən olmuşdur.

Yaşar Əliyev yüklərin daşınması üçün Azərbaycanın 2020-ci ildə logistik imkanlarını təqdim etdiyini, 2021-ci ildə yüklərin BQXK tərəfindən həmin əraziyə çatdırılması üçün Bərdəyə daşındığını, lakin erməni tərəfin yüklərdən imtina etdiyini də vurğulamışdır. Bildirmişdir ki, Azərbaycan BQXK-dən yerli sakinlər üçün lazım olan malların siyahısını təqdim etməyi xahiş etmiş və onların çatdırılması üçün bütün maddi-texniki və infrastruktur dəstəyi göstərməyə hazır olduğunu demişdi. Lakin Ermənistan tərəfi Azərbaycan üzərindən hər hansı təchizatdan imtina etmişdir.

Qarabağ bölgəsinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olduğunu və orada yaşayan etnik ermənilərin Azərbaycanın sakinləri hesab edildiyini vurğulayan daimi nümayəndəmiz bildirmişdir ki, Azərbaycan hökuməti bu sakinlərin zəruri mallara çıxışını təmin etmək, onlar üçün müvafiq yaşayış şəraiti yaratmaq əzmindədir. O, həmçinin "Laçın dəhlizi" adlanan yolun Azərbaycanın suveren ərazisi daxilində heç bir ekstraterritorial statusu olmayan yol olduğunu bildirmiş, ilk növbədə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin daşınması üçün nəzərdə tutulduğunu və Azərbaycanın öhdəliklərinə sadiq qaldığını diqqətə çatdırmışdır.

Ekspertlər qeyd edirlər ki, bütün hallarda iclasın gedişi Ermənistanın gözləntilərini gözündə qoymuşdur. Haylar daha təsirli nəticənin olacağını düşünürdülər. Ancaq həqiqət, eləcə də ölkəmizin tərəfdaşlarının məsələyə ədalətli münasibəti Ermənistana diplomatik müstəvidə növbəti məğlubiyyət yaşatmışdır. Politoloqlar hesab edirlər ki, son nəticədə bu müzakirə rəsmi İrəvanın xarici siyasətinin fiaskosu kimi qiymətləndirilə bilər. İclası siyasi şouya çevirmək cəhdinin daşa dəyməsi Ermənistana gələcək üçün ciddi dərs olmalıdır. Haylar başa düşməlidirlər ki, həqiqətin və ədalətin qarşısında hər cür hiylə, yalan acizdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## İkiüzlü siyasət, məkrli niyyət

### Ağ Ev köhnə əməllərini yenə "işə salıb"

Avqustun 16-da BMT Təhlükəsizlik Şurası guya Laçın-Xankəndi yolunda yaranmış "humanitar böhranı"n müzakirəsi üçün təcili iclas keçirdi.







Lakin Ermənistanın və xüsusilə son vaxtlar Azərbaycan əleyhinə qərəzli kampaniyalar aparan ABŞ-nin bu iclasda şou yaratmaq cəhdləri fiasko ilə nəticələndi. Ermənistanın sülh gündəliyinə sadiq olmaması, hər vəchlə Azərbaycanı beynəlxalq tribunalarda şantaj etməyə çalışması BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələrdə daha qabarıq göründü. Həmçinin ABŞ nümayəndəsinin həqiqətləri əks etdirməyən, anlaşılmaz və riyakar çıxışı rəsmi Vaşinqtonun da əsl mahiyyətini ortaya qoydu. Amma Azərbaycan tərəfindən səsləndirilən tutarlı cavablar və arqumentlər Ermənistanın "humanitar böhran", "blokada" kimi növbəti siyasi manipulyasiya cəhdlərini iflasa uğratdı.

Onu da vurğulayaq ki, ABŞ Dövlət Departamentinə yaxın olan "Vaşinqton Post" qəzetində yenidən Azərbaycana qarşı böhtan kampaniyasına start verilib. Son bir ayda Azərbaycan əleyhinə 2 qərəzli material dərc edilməsi bunu bir daha təsdiqləyir.

Əslində, bu, ABŞ-nin regional maraqlarına uyğun deyil, çünki Azərbaycan regionun şəksiz lideridir və etibarlı tərəfdaşdır, bütün regional layihələrin təşəbbüskarı və əsas icraçısıdır. Rəsmi Bakının apardığı müstəqil xarici siyasət regionda sabitlik və sülhün bərqərar olmasına yönəlib, bu da məntiqlə ABŞ-nin də maraqlarına cavab verməlidir. Amma görünür ki, bu ölkənin bəzi dairələri "fərqli düşünür". Bütün hallarda, Ağ Evin həm BMT TŞ-dəki mövqeyi, həm də "Vaşinqton Post"un qərəzli yanaşması göstərir ki, ABŞ köhnə əməllərindən hələ də əl çəkməyib.

#### Erməni məsələsi ABŞ-nin rəsmi siyasətinin elementinə çevrilib

Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı deyib ki, müstəqillik qazandığımız vaxtdan ta bu günə qədər iki dövlət xüsusilə Azərbaycana qarşı həmişə ikili standartlarla çıxış edib və əksər hallarda qərəzli münasibətləri ilə fərqləniblər. Bu dövlətlərdən biri ABŞ, digəri isə Fransadır.

Partiya sədrinin fikrincə, bu ölkələrin hər birinin öz maraqları var və məhz bu maraqlar çərçivəsində bütün dünya dövlətlərinə, eləcə də Azərbaycana qarşı münasibətlərini qururlar. Lakin digər dövlətlərdən fərqli olaraq, ABŞ və Fransanın ölkəmizə qarşı qərəzli münasibət sərgiləmələrinin əsas qaynaqlarından biri hər iki ölkədə erməni diasporunun siyasi proseslərə ciddi təsir etmək imkanıdır.

Deputat söyləyib ki, illər uzunu ABŞ-də məskunlaşan ermənilər riyakarlıq və hiyləgərlik xüsusiyyətlərinə görə orada kifayət qədər "ciddi" mövqe qazana biliblər. Pulla siyasətçiləri, dövlət xadimlərini, hətta mətbuatı da ələ alıblar. Seçki proseslərində ayrı-ayrı namizədlərə və senatlara göstərdikləri maliyyə dəstəyi müqabilində erməni məsələsinin dünya miqyasında müdafiə edəcəkləri vədini onlardan alıblar. Yəni ABŞ siyasətini müəyyənləşdirən insanların arasında erməni lobbisi formalaşa bilib.

"Faktiki olaraq, erməni diasporu məkrli oyunlarını ABŞ-nin rəsmi siyasətinin elementinə çevirə bilib. Hazırkı Prezident Co Bayden ABŞ-nin sabiq prezidentlərindən fərqli olaraq, "erməni soyqırımı" ifadəsini dilə gətirib. Çünki Bayden də xeyli dərəcədə erməni diasporundan asılıdır", - deyə Fəzail Ağamalı vurğulayıb.

#### ABŞ bölgədə Azərbaycan kimi güclü və nüfuzlu dövlətin mövcudluğunu istəmir

Milli Məclisin deputatı, Böyük Qurtuluş Partiyasının sədri Fazil Mustafa bildirib ki, ABŞ-nin ermənipərəst mövqeyi açıq-aydın ortadadır. Lakin buna baxmayaraq, Azərbaycan bütün hallarda öz mübarizəsini aparmalıdır. Nəzərə almaq lazımdır ki, Azərbaycan ABŞ-nin hansısa mövqeyinə görə mövcud deyil. Ona görə mövcuddur ki, milli dövlət qurmaq xarakterini, dəyişməz mövqeyini ortaya qoyub.

Partiya sədri qeyd edib ki, ABŞ bölgədə Azərbaycan adlı, həm də belə güclü və nüfuzlu dövlətin olmasını istəməz: "Amma bu, hansısa qüvvələrin istəyinə görə tənzimlənmir. Bu gün dövlətimiz varsa, deməli, biz varıq. Ona görə də hansısa Təhlükəsizlik Şurasında ifadə olunan mövqelər bizi təsir altına sala bilməz".

Fazil Mustafanın fikrincə, Azərbaycan tərəfi ABŞ ilə normal münasibətini davam etdirməli, orada obyektiv qərarların daha çox qəbul edilməsinə çalışmalıdır. ABŞ kimi nəhəng bir dövlətin siyasi kursunu müəyyən edəcək imkana sahib olmasaq da, həqiqətləri qarşı tərəfə daha aydın və anlaşıqlı şəkildə çatdırmaqla, ABŞ-nin mövqeyinin obyektivləşməsinə töhfə verə bilərik.

#### Erməni lobbisi ABŞ siyasətçilərini pulla ələ alır

Milli Məclisin deputatı Azər Badamov qeyd edib ki, ABŞ-nin dövlət səviyyəsində Azərbaycanın haqq işini dəstəkləməsinə və regiona sülhün gəlişinə töhfə verməyə çalışmasına baxmayaraq, qeyri-rəsmi səviyyədə ölkəmizə qarşı ikiüzlü davranır və ikili standartlara əl atır: "Bunun əsasında ABŞ-də yerləşən erməni lobbisinin güclü fəaliyyəti dayanır. Erməni lobbisinin bu ölkədəki təsir gücü böyükdür. Onlar ABŞ siyasətçilərini pulla ələ alır və Azərbaycana qarşı öz istəklərinə uyğun açıqlamalar verdirməyə nail olurlar. Sonra da bu açıqlamaları birbaşa ABŞ-nin adına yazırlar. Fikrimcə, erməni diasporunun bu yanaşması heç bir məntiqə sığmır".

Deputatın sözlərinə görə, ABŞ ilə Azərbaycan arasındakı münasibətlər strateji əməkdaşlıq xarakteri daşıyır. ABŞ-nin Azərbaycana qarşı əsl münasibəti beynəlxalq təşkilatlarda dövlət səviyyəsində aparılan müzakirələr zamanı bəlli olur. ABŞ üçün Cənubi Qafqazda maraqlı ölkə Azərbaycandır. Ölkəmiz hər zaman rəsmi Vaşinqtonla münasibətlərinə, tərəfdaşlığına sadiqliyini nümayiş etdirib. Lakin ABŞ-nin son zamanlarda Azərbaycana qarşı apardığı qərəzli kampaniya onun ikili standartlar prinsipinin hələ də davam etdiyini göstərir.

Azər Badamov onu da əlavə edib ki, BMT TŞ-də Ermənistan və Fransanın Azərbaycanın ünvanına yönəltdiyi saxta ittihamların ayaq tutub yeriməməsinin əsasında dost və tərəfdaş ölkələrin ədalətli mövqe sərgiləməsi dayanır.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Fransanın növbəti uğursuzluğu

### BMT Təhlükəsizlik Şurası rəsmi İrəvanla yanaşı, Parisin də arzusunu ürəyində qoydu

Ermənistanın Azərbaycan əleyhinə BMT Təhlükəsizlik Şurasında yeni qətnamə qəbul etdirmək istəyi ürəyində qaldı. Bu, Fransaya da ağır zərbə oldu. Hayastanın Azərbaycan torpaqlarını işğalda saxladığı illərdə, xüsusən də Vətən müharibəsindən sonra Fransanın ermənipərəst ölkə olduğunu bütün dünya görüb.

ATƏT-in keçmiş Minsk qrupunun üzvü olan Fransanın həmsədr ölkə kimi "fəaliyyəti" də sübuta yetirilmişdir. İkinci Qarabağ müharibəsindən əvvəl işğalçıya daim dəstəyini göstərən rəsmi Parisin mövqeyi, xisləti elə indi də dəyişməyib.

Fransa Prezidenti Emmanuel Makronun yürütdüyü daxili və xarici siyasət Ermənistanın mövqeyi ilə eyniyyət təşkil edir. Belə ki, özü tarixən müstəmləkəçiliklə məşğul olan dövlət işğalçı Ermənistandan fərqlənmir. Odur ki, hər zaman ona dəstək olub. Təbii ki, burada erməni diasporundan aldığı maliyyə vəsaitləri də az rol oynamır. Hər kəs bilir ki, erməni diasporunun ən güclü olduğu, kök saldığı ölkələrdən birincisi elə Fransadır. Boşuna Fransanı Ermənistanın "böyük bacısı" adlandırmırlar.

Hər dara düşəndə, yıxılanda, arxa-dayaq axtaranda Ermənistanın ilk döydüyü qapı Fransa olur. Çünki bilir ki, kim onlardan üz döndərsə də, "bacı"sı onları qucaqlayıb əllərindən tutacaqdır.

Bu dövlət hər zaman Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilib. Ölkəmizə qarşı ədalətsiz, məkrli, riyakar siyasət yürüdüb. Xüsusən, Makronun dövründə bu qərəzli mövqe bütün çılpaqlığı ilə ortaya qoyulub. Həm Prezident Makronun, həm də Fransanın digər rəsmi şəxslərinin dillərindən Azərbaycan əleyhinə fikirlər, qarayaxma kampaniyaları əskik olmur. Bu, bizim üçün artıq adi hala çevrilib.

Ermənistan da "böyük bacısı"nı yaxşı tanıdığından anti-Azərbaycan kampaniyası üçün hər zaman Fransadan mədəd umur və ölkəmizə qarşı yeni qərəzli qətnamələrin, sənədlərin qəbulu üçün beynəlxalq təşkilatlara, instansiyalara müraciət etməsi üçün üzünə tutub bu ölkəni irəli verir. Elə Fransanın "səy"lərinin nəticəsi olaraq müxtəlif qurumlarda Azərbaycan əleyhinə olan yalan, əsassız iddialara baxılıb.

Doğrudur, hər dəfə ədalət yerini tapsa da, hər ikisi əliboş, qanı-qara geri qayıtsalar da, mənfur "səy"lərindən əl çəkmirlər.

Avropa Parlamentində dəfələrlə Azərbaycana qarşı əsassız qətnamələrin qəbulu üçün Fransanın dəridən-qabıqdan çıxdığının, otuz il ərzində bu dövlətin ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olaraq ermənipərəst mövqeyi ilə keçmiş münaqişənin həlli yolunda heç bir addım atılmamasının şahidi olmuşuq.

Elə, çox uzağa getməyək, Fransa Prezidenti Emmanuel Makronun Prezident İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla Praqada Azərbaycanın xoş məramına əsasən görüşdə iştirak etməsindən sonrakı çıxışı, bəyanatları bu ölkənin nə qədər riyakar olduğunu göstərir. Makron dördtərəfli görüşdən cəmi bir həftə sonra Azərbaycanın dəhşətli müharibə törətdiyini iddia edərək dünya ictimaiyyətini çaşdırmağa çalışdı. O, "Dağlıq Qarabağ", "mübahisəli ərazi" ifadələrini işlətməklə ölkəmizin ərazi bütövlüyünü şübhə altına almaqdan belə çəkinmədi.

Ümumiyyətlə, həm Praqa görüşündən sonra, həm Şuşada ekofəalların haqlı aksiyası zamanı, həm də Azərbaycanın beynəlxalq hüquq çərçivəsində tanınan sərhədləri daxilində - Laçın yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurmasından sonra Makronun və digər fransız rəsmilərin hadisələri reallıqdankənar mövqeyə sürüklədiyini, bununla bağlı qərəzli çıxışlarını hələ də eşitməkdəyik.

#### Fransanın BMT-dəki fiaskosu

Fransanın xarici siyasətindəki riyakarlığı hər addımda müşahidə etmək mümkündür. Burada Fransanın Avropa və xarici işlər naziri Ketrin Kalonnanın Cənubi Qafqaza səfərini, daha sonra çıxışlarını da xatırlamaq yerinə düşərdi.

K.Kalonna Azərbaycana səfərində Prezident İlham Əliyev və xarici işlər naziri Ceyhun Bayramovla görüşündən sonra İrəvana gedərək orada erməni rəsmiləri ilə Laçın yolundakı vəziyyət, Azərbaycanla Ermənistan münasibətləri barədə qərəzli müzakirələr apardı. O, İrəvanda birtərəfli, əsassız, Ermənistana dəstək ifadə edən çıxışları ilə Fransanın mövqeyini bir daha ortaya qoydu.

Azərbaycanın daxili işlərinə heç kimin qarışmamasını, xüsusilə, bununla bağlı Fransaya dəfələrlə xəbərdarlıqlar etməsinə baxmayaraq, Kalonna yenə ölkəmizin suveren ərazilərində sərhəd-keçid məntəqəsi qurması məsələsinə müdaxilə etdi.

Bundan başqa, Fransa Xarici İşlər Nazirliyinin aprel ayında Ermənistan tərəfinin Laçın rayonu istiqamətində yerləşən mövqelərimizə qarşı təxribatı ilə əlaqədar həqiqətəuyğun olmayan bəyanatını da xatırlamaq olar.

Ermənistanın guya Laçın yolunun "blokada"da olması, Qarabağda "humanitar fəlakət" yaşanması ilə bağlı BMT Təhlükəsizlik Şurasına etdiyi müraciətə cəmi 5 günə baxılması da bu qurumun daimi üzvləri arasında ikili standartlar, məkrli siyasət yürüdən Fransa və ABŞ-nin yer alması əsas rol oynayır. Hər iki ölkə, xüsusən də ABŞ sözdə Azərbaycanı Qərbin enerji təhlükəsizliyində özünə tərəfdaş saydığını, Prezident İlham Əliyevin enerji siyasətini dəstəklədiyini bildirir, digər tərəfdən isə, ölkəmizin əleyhinə məkrli, bədnam kampaniyalar təşkil etməklə ikiüzlü siyasət yürütdüyünü bir daha göstərir.

Fransa daim çalışır ki, hansı təşkilat olursa-olsun, təki orada Azərbaycan əleyhinə bir sənəd qəbul edilsin və ya kəskin ifadələr işlədilsin. Ermənistanın BMT TŞ-yə müraciətinin dəstəkçisi də rəsmi Paris idi. Fransanın istəyi o idi ki, bu təşkilat Azərbaycan əleyhinə yeni qətnamə qəbul etsin. Amma canfəşanlığına baxmayaraq, BMT TŞ-də heç bir sənəd qəbul olunmadı. Azərbaycan tərəfi əsaslı faktlarla erməniləri, ölkəmizə qarşı yalan iddialarla çıxış edən ABŞ-ni və Fransanı, ümumilikdə isə Ermənistanın bütün havadarlarını susdura bildi.

Beləliklə, Fransa və Ermənistan cütlüyü yenə uğursuzluğa düçar oldu. Onların arzu və istəkləri növbəti dəfə puç oldu. Görünən odur ki, Fransa yürütdüyü riyakar, məkrli siyasətindən əl çəkən deyil. Azərbaycana qarşı kampaniyaların daim əsas müəllifi kimi çıxış etməkdədir. Amma Fransa çox vacib bir məsələni unudur. Görünür ki, bu da ona tez-tez xatırladılmalıdır. Cənubi Qafqaz nə Fransanın, nə ABŞ-nin, nə Qərbin, nə də regionda marağı olan digər dairələrin döyüş meydanı deyil. Azərbaycan 44 günlük Vətən müharibəsində qalib gələrək bölgəyə yeni reallıq gətirib. Regionun güclü dövləti olan Azərbaycanın məqsədi Cənubi Qafqazda sülhü, əmin-amanlığı, təhlükəsizliyi bərqərar etməkdir.

BMT TŞ-də ölkəmizin əleyhinə heç bir sənədin qəbul edilməməsi, Azərbaycan diplomatiyasının növbəti qələbəsi oldu. Prezident İlham Əliyevin düşünülmüş xarici siyasəti, qonşu dövlətlərlə balanslı münasibətlər qurması, Qoşulmama Hərəkatına üzv dövlətlərlə ikitərəfli və çoxtərəfli münasibətləri inkişaf etdirməsi, tərəfdaş ölkələrlə qarşılıqlı maraqları eyni müstəviyə gətirməsi, strateji düşüncəni ön planda tutması TŞ-də Ermənistanın son ümidlərinin puça çıxması ilə nəticələndi.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın Sərhəd Mühafizəsinin 104-cü ildönümü münasibətilə təntənəli tədbir keçirilib

## Dövlət sərhədinin toxunulmazlığının təmin olunması kimi müqəddəs vəzifə ilə fəxr edən sərhədçilərimiz gələcəyə inamla baxırlar






Avqustun 18-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəhbərliyi və şəxsi heyəti Azərbaycanın Sərhəd Mühafizəsinin 104-cü ildönümü münasibətilə Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi hörmətlə yad edilib.

DSX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, İkinci Fəxri xiyabanda və Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həlak olmuş igid oğulların xatirəsi anılaraq "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Sonra DSX-nin "Sərhədçi" Mədəniyyət Mərkəzində təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə DSX-nin rəisi general-polkovnik Elçin Quliyev çıxış edərək Azərbaycanın Sərhəd Mühafizəsinin 104-cü ildönümü münasibətilə şəxsi heyəti təbrik edib.

Çıxışda 44 günlük Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğu, 2022-ci il sentyabrın 12-13-də Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu istiqamətində genişmiqyaslı təxribatlarının qarşısının alınması zamanı DSX-nin qarşısında qoyulmuş döyüş tapşırıqlarının layiqincə icra edildiyi, Azərbaycan sərhədçilərinin igidlik dastanı yazdıqları, dövlətimizin başçısının tapşırığı əsasında Ermənistan-Azərbaycan dövlət sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında, Həkəri çayı üzərindəki körpünün üstündə dövlət sərhədindən buraxılış məntəqəsinin qurulması, fəxarət rəmzimiz olan üçrəngli dövlət bayrağımızın ucaldılması ilə sərhədlərimizin bütövlüyünün təmin edilməsi xüsusi vurğulanıb.

Dövlət sərhədinin toxunulmazlığının təmin olunması kimi müqəddəs vəzifə ilə fəxr edən, üçrəngli dövlət bayrağımız altında milli maraqlarımızı ən yüksək səviyyədə qorumaqdan qürur duyan sərhədçilərin gələcəyə inamla baxdıqları, bu inamın Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti və onun rəhbərliyi ilə qazanılan qələbələrdən qaynaqlandığı qeyd edilib.

Tədbir zamanı Prezident İlham Əliyevin 2023-cü il 17 avqust tarixli sərəncamları şəxsi heyətə elan edilib, zabitlərə ali hərbi rütbələr təqdim olunub, xidməti-döyüş fəaliyyətində fərqlənən hərbi qulluqçular orden və medallarla təltifləndirilib.

Tədbirin rəsmi hissəsindən sonra şəxsi heyət DSX-nin Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin əlamətdar gün münasibətilə hazırladığı bayram konsertini izləyib, iştirakçılara Azərbaycan Sərhəd Mühafizəsinin xidməti-döyüş fəaliyyətini özündə tərənnüm edən "Şərə qarşı" sənədli filmi nümayiş olunub.

# YAP Mərkəzi Aparatında KXDR-in ölkəmizdəki səfiri ilə görüş

Avqustun 18-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Koreya Xalq Demokratik Respublikasının (KXDR) Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Sin Xon Çxol ilə görüş keçirilib.



Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev Koreya Xalq Demokratik Respublikasının Azərbaycan üçün dost ölkə olduğunu bildirib. Ötən il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladan Əhliman Tağıyev Azərbaycanla Koreya Xalq Demokratik Respublikası, eləcə də YAP ilə Koreya Əmək Partiyası arasında dövlətlərimizin və xalqlarımızın mənafeyinə xidmət edən qarşılıqlı faydalı münasibətlərin inkişafı üçün geniş imkanların olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, hakim partiyalar arasında əlaqələrin genişləndirilməsi dövlətlərarası münasibətlərin inkişafına öz töhfəsini verəcək.

Koreya Xalq Demokratik Respublikasının ölkəmizdəki səfiri Sin Xon Çxol Azərbaycanda olmaqdan məmnunluq duyduğunu ifadə edib. Ümummilli Lider Heydər Əliyevin 1985-ci ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini qismində nümayəndə heyətinin rəhbəri kimi KXDR-ə səfər etdiyini xatırladan səfir Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük uğurlar əldə etdiyini vurğulayıb. Azərbaycanın Qoşulmama Hərəkatında yüksək səviyyədə təmsil olunmasına toxunan səfir ölkəmizin Hərəkata sədrlik müddətində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. O, Koreya Əmək Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin qurulmasında və inkişafında maraqlı olduqlarını, bu istiqamətdə qarşılıqlı fikir mübadiləsinin aparılmasının böyük önəm daşıdığını bildirib.

Sonda xatirə fotosu çəkdirilib.

# Vətən müharibəsi iştirakçıları Dövlət Xidmətində həqiqi hərbi xidmətə qəbul ediliblər

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 44 günlük Vətən müharibəsində iştirak etmiş doqquz veteranı həqiqi hərbi xidmətə qəbul edib.



Dövlət Xidmətindən AZƏRTAC-a bildirilib ki, xidmətə qəbul olunan zaman namizədlərin bilik və fiziki hazırlıq səviyyələri yoxlanılıb.

Avqustun 18-də Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimov yeni həqiqi hərbi xidmətə qəbul olunan hərbi qulluqçularla görüşərək onlara xidməti vəsiqələrini təqdim edib, tapşırıq və tövsiyələrini verib. Doqquz nəfərdən biri mayor, ikisi baş leytenant, üçü isə leytenant rütbəsi ilə xidmətə qəbul edilib. Həmçinin xidmətə qəbul olunan mülki şəxslərdən bir nəfərə çavuş, bir nəfərə kiçik gizir, bir nəfərə isə leytenant ilk hərbi rütbəsi verilib.

"Çox sevindirici haldır ki, sizlər - İkinci Qarabağ müharibəsinin iştirakçıları xidməti davam etmək üçün məhz bizim qurumu seçmisiniz. İstər sülh, istərsə də müharibə dövründə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti qarşıya qoyulan məsələlərin həll edilməsində, vətəndaşlarımıza vətənpərvərlik hisslərinin aşılanmasında mühüm rola malik hərbi qurumdur. Bu gündən etibarən siz də bu missiyanın uğurla həyata keçirilməsində rol oynayacaqsınız. Sizi bu münasibətlə ürəkdən təbrik edirəm, çalışın qüsursuz və şərəflə xidmət aparın", - deyə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimov bildirib.

Qeyd edək ki, hərbi xidmətə qəbul olunan veteranlar müharibədə iştirak etdiklərinə görə Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə müxtəlif medallarla təltif olunublar.

## "Böyük qayıdış" proqramı sürətlə icra olunur

# Füzuli şəhərinə yola düşən ilk köç karvanı ünvanına çatıb





Avqustun 18-də səhər saatlarında Füzuli şəhərinə yola düşən ilk köç karvanı öz ünvanına çatıb. Otuz ildən sonra 23 ailə yenidən doğma yurdu olan Füzulidə məskunlaşıb.





AZƏRTAC xəbər verir ki, 30 il yurd həsrəti ilə yaşayan Füzuli sakinlərinin doğma yurda qayıdışına başlanılıb. Bu gündən etibarən 23 ailənin 90 üzvü doğma yurdda yaşamağa başlayıb. Füzuli şəhərinə çatan ailələr Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən qarşılanıb. Onlara yenidən öz doğma elində məskunlaşmaları münasibətilə gözaydınlığı verilib. Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları əsasında, şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparılıb. Püşkatma avqustun 5-də Dövlət Komitəsinin Repatriasiya Departamentində keçirilib. Püşkatmada 144 ailə ( 509 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 51-i ikiotaqlı, 76-sı üçotaqlı, 17-si dördotaqlı mənzil ilə təmin olunub. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

# Diaspor Gənclərinin IV Yay Düşərgəsinin rəsmi bağlanış mərasimi olub



"Heydər Əliyev İli" çərçivəsində Naxçıvanda baş tutan "Heydər Əliyev - 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsinin rəsmi bağlanış mərasimi keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, mərasimi açıq elan edən komitənin şöbə müdiri Vəsilə Vahidqızı Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş düşərgənin gənclərin yaddaşında silinməz iz buraxacağına inandığını qeyd edib.

Sonra bir həftə davam edən Yay Düşərgəsini əks etdirən videoxülasə nümayiş etdirilib.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli düşərgənin Naxçıvanda keçirilməsindən və iştirakçıların Naxçıvanda aparılan yenidənqurma və quruculuq işləri, eləcə də bu qədim diyarın tarixi yerləri ilə tanışlığından məmnun olduğunu söyləyib. O, Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası sayəsində yaxın beş ildə Naxçıvanda böyük işlər görüləcəyini vurğulayaraq, düşərgə iştirakçılarını beş ildən sonra yenidən Naxçıvana dəvət edib: "Mən sizinlə sağollaşmıram, aramıza xoş gəldiniz deyirəm".

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov IV Yay Düşərgəsinin təşkilində göstərdikləri dəstəyə görə Heydər Əliyev Fonduna və Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəliyinə təşəkkür edib. Komitə sədri artıq ənənə halını alan düşərgələrin Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tövsiyələrinə uyğun olaraq xaricdə yaşayan azərbaycanlı gənclərin vətənlə əlaqələrini intensivləşdirmək və öz soykökünə, mədəniyyətinə bağlılığını qoruyub saxlamaq məqsədi daşıdığını vurğulayıb, gəncləri diaspor fəaliyyətində və Azərbaycan həqiqətlərininin təbliğində fəal olmağa çağırıb.

Düşərgə iştirakçılarına sertifikatlar təqdim olunduqdan sonra tədbir bədii hissə ilə yekunlaşıb.

Qeyd edək ki, avqustun 12-dən 18-dək davam edən Diaspor Gənclərinin IV Yay Düşərgəsi Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə gerçəkləşdirilib. Düşərgənin tərəfdaşı Heydər Əliyev Fondu, təşkilati dəstək Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı xüsusi nümayəndəliyinə məxsus olub.

Diaspor tarixinin möhtəşəm layihələrindən biri hesab olunan IV Yay Düşərgəsində 53 ölkəni təmsil edən 100-dən çox gənc iştirak edib. Onların arasında həm dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, həm də Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri var. Layihənin Heydər Əliyevin bir əsr əvvəl dünyaya gəldiyi qədim Naxçıvan şəhərində keçirilməsi xüsusi önəm daşıyıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev avqustun 18-də Qazax Rayon Mərkəzi Xəstəxanasında Qazax, Tovuz və Ağstafa rayon sakinləri ilə görüşüb.

Qazax, Tovuz və Ağstafa Rayon Mərkəzi xəstəxanalarının direktorlarının, Gəncə və Şəmkir filiallarının rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə 33 vətəndaşın müraciətinə baxılıb. Vətəndaşların müraciətləri əsasən əlillik məsələləri, iş və əmək münasibətləri, müayinə-müalicə, icbari tibbi sığorta çərçivəsində ixtisaslaşdırılmış tibb müəssisələrinə göndəriş vərəqələrinin verilməsi, dərman təminatı, kənd tibb məntəqələrinin təmiri ilə bağlı olub. Müraciətlər diqqətlə dinlənilib və bir sıra məsələlər yerində həll olunub. Digər müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun baxılması məqsədilə müvafiq tapşırıqlar verilib.

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü və 29.0.21-ci maddələrinə əsasən hazırlanmışdır və xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması (bundan sonra - tanınma) ilə bağlı təşkilati və hüquqi məsələləri tənzimləyir.

1.2. Tanınma xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının sahiblərinə Azərbaycan Respublikasında təhsilini davam etdirmək və (və ya) ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququnu verir.

1.3. Tanınma Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (bundan sonra - Agentlik) tərəfindən həyata keçirilir.

1.4. Tanınma Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər qanunları, bu Qaydalar, Azərbaycan Respublikası Prezidentinin digər fərmanları, həmçinin sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, habelə Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarının tələbləri nəzərə alınmaqla həyata keçirilir.

1.5. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.5.1. **Avropa Kredit Transferi və Toplanması Sistemi** (bundan sonra - AKTTS) **-** Avropa İttifaqı və digər tərəfdaş Avropa ölkələrində ali təhsilli məzunların təhsil nailiyyətlərinin və fəaliyyətinin müqayisəsi məqsədilə istifadə olunan standart;

1.5.2. **alternativ tanınma -** xarici dövlətin ali təhsilə aid Azərbaycan Respublikasında mövcud olmayan kvalifikasiyanın həmin xarici dövlətdə aid olduğu təhsil pilləsindən (səviyyəsindən) daha aşağı pillə (səviyyə) üzrə və ya eyni pillə (səviyyə) üzrə, lakin fərqli kvalifikasiyaya uyğun olaraq həyata keçirilən akademik tanınma növü;

1.5.3. **əhəmiyyətli fərq -** xarici dövlətin ali təhsilə aid kvalifikasiyasının əsas elementləri (kvalifikasiyaların səviyyələri, təlimin həcmi və (və ya) yekun attestasiyanın nəticəsi, kvalifikasiyanın istiqaməti (profili) və təlimin nəticələri) ilə Azərbaycan Respublikasındakı uyğun kvalifikasiyanın əsas elementləri arasında ərizəçinin Azərbaycan Respublikasında təhsilini növbəti səviyyədə davam etdirməsi və (və ya) ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququnun yaranmasına kifayət etməyən həcmdə fərq;

1.5.4. **ərizəçi -** xarici dövlətin ali təhsilə aid kvalifikasiyasının tanınması üçün müraciət edən şəxs;

1.5.5. **kvalifikasiyanın akademik tanınması** (bundan sonra - akademik tanınma) **-** xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilmiş ali təhsilə aid kvalifikasiyanın sahibinə Azərbaycan Respublikasında təhsilin növbəti pilləsində (səviyyəsində) təhsilini davam etdirmək hüququnun verilməsi;

1.5.6. **kvalifikasiyanın peşə tanınması** (bundan sonra - peşə tanınması) **-** xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilmiş ali təhsilə aid kvalifikasiyanın sahibinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən əmək müqaviləsi bağlanılarkən onun əmək funksiyasının xüsusiyyətlərinə uyğun olan peşə hazırlığının və ya təhsilin olması zəruri sayılan hallarda işəgötürənə təqdim edilən təhsil sənədində qeyd edilən müvafiq peşə fəaliyyəti göstərmək hüququnun verilməsi;

1.5.7. **qismən tanınma -** xarici dövlətin ali təhsil müəssisəsində təhsil alan şəxsin natamam ali təhsilinin qalan hissəsini Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində davam etdirə bilməsi üçün həyata keçirilən akademik tanınma növü;

1.5.8. **tanınma şəhadətnaməsi -** "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə (bundan sonra - TMİS) elektron sənəd formasında yaradılan və elektron formada verilən tanınmaya dair sənəd;

1.5.9. **tanınma -** xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilən və verildiyi ölkədə ali təhsil pilləsinə qəbul olunmaq və ya ali təhsilin növbəti səviyyələri üzrə təhsilini davam etdirmək və (və ya) ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququ verən, həmçinin şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunu təsdiq edən təhsil haqqında sənədlərin (bundan sonra - xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyası) Azərbaycan Respublikasının ərazisində qüvvədə olmasının təsdiqi;

1.5.10. **xarici dövlətin səlahiyyətli keyfiyyət təminatı qurumu -** müvafiq xarici dövlətdə təhsil müəssisələrinin akkreditasiyasını həyata keçirən ixtisaslaşmış səlahiyyətli qurum;

1.5.11. **xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilmiş ali təhsil pilləsinə qəbul olunmaq hüququ verən kvalifikasiya** (bundan sonra - ali təhsil pilləsinə qəbul olunmaq hüququ verən kvalifikasiya) **-** xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilən və verildiyi ölkədə ali təhsil pilləsinə qəbul olunmaq hüququ verən, habelə şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunu təsdiq edən təhsil haqqında sənəd;

1.5.12. **xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilmiş ali təhsil pilləsi üzrə kvalifikasiya** (bundan sonra - ali təhsil üzrə kvalifikasiya) **-** xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilən və verildiyi ölkədə ali təhsilin növbəti səviyyələri üzrə təhsilini davam etdirmək və (və ya) ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququ verən, həmçinin ali təhsil pilləsinin bakalavriat (o cümlədən əsas (baza) ali tibb təhsili) və magistratura səviyyələri üzrə şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunu təsdiq edən təhsil haqqında sənəd;

1.5.13. **şərti tanınma -** ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsilinə) və magistratura səviyyələri üçün müəyyən edilmiş minimal kredit sayından az toplayan ərizəçiyə ixtisasına uyğun Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində mühazirələrdə (praktik məşğələlərdə) iştirak etməklə mövcud əhəmiyyətli fərqi aradan qaldırmaq hüququ verən akademik tanınma növü.

1.6. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ-hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.7. Bu Qaydalar keçmiş SSRİ-nin tərkibində olan dövlətlərin təhsil müəssisələri tərəfindən 1993-cü il yanvarın 1-dək verilmiş kvalifikasiyalara münasibətdə tətbiq edilmir.

1.8. Tanınmaya görə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş məbləğdə xidmət haqqı ödənilir.

## 2. Tanınmaya dair müraciətin edilməsi

2.1. Tanınma ərizəçinin müraciəti əsasında həyata keçirilir.

2.2. Tanınmaya dair müraciət elektron qaydada edilir, TMİS-də qeydiyyata alınır və hər bir ərizəçiyə sistemdə şəxsi kabinet yaradılır. Müraciət Agentliyə daxil olduqdan sonra ərizəçinin müraciətində göstərdiyi əlaqə telefonuna və ya elektron poçt ünvanına qeydiyyat şifrəsi göndərilir. Ərizəçi qeydiyyat şifrəsi vasitəsilə onun üçün yaradılmış şəxsi kabinetdə olan məlumatları əldə edə və müraciətinin statusunu izləyə bilər.

2.3. Ərizəçinin ərizəsində tanınmanın məqsədi qeyd edilir. Ərizəçi TMİS-ə müraciət edərkən aşağıdakıları təsdiq edir:

2.3.1. təqdim edilmiş sənədlərin və məlumatların doğruluğunu;

2.3.2. onun barəsində məlumatların alınması üçün aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərinə və ehtiyatlarına, aidiyyəti orqanlara (qurumlara) və ya təhsil müəssisəsinə sorğuların göndərilməsinə razılığını.

2.4. Ərizəçinin elektron müraciətinə aşağıdakı sənədlərin surətləri əlavə edilir:

2.4.1. ərizəçinin şəxsiyyət vəsiqəsi, pasportu və ya şəxsiyyətini təsdiq edən digər sənədlər;

2.4.2. xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyası və onun əlavəsi;

2.4.3. tanınma üçün müraciət edilən təhsil səviyyəsinə (pilləsinə) qəbul üçün istifadə olunan təhsil sənədi;

2.4.4. ərizəçi tədris müddətində bir təhsil müəssisəsindən digərinə və ya təhsil müəssisəsi daxilində bir ixtisasdan digərinə köçürüldüyü halda, onun təhsil aldığı müddətdə digər təhsil müəssisəsində və ya digər təhsil proqramında tədris olunmuş fənlərə (toplanılmış kreditlərə) dair arayış;

2.4.5. akademik transkript və ya akademik arayış (qismən tanınma üçün müraciət olunduqda);

2.4.6. tanınmaya görə xidmət haqqının ödənilməsini təsdiq edən sənəd.

2.5. Bu Qaydaların 2.4-cü bəndində qeyd edilən sənədlər (türk, rus və ingilis dillərində verilmiş sənədlər istisna olmaqla) Azərbaycan dilinə tərcümə edilməli və notariat qaydasında təsdiq olunmalıdır.

2.6. Bu Qaydaların 2.4.2 - 2.4.5-ci yarımbəndlərində qeyd olunan sənədlər Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi" ilə müəyyən edilmiş qaydada və ya "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"nın tələblərinə uyğun olaraq leqallaşdırılmalıdır.

2.7. Bu Qaydaların 2.6-cı bəndinin tələbləri aşağıdakı kvalifikasiyalara münasibətdə tətbiq edilmir:

2.7.1. Azərbaycan gənclərinin dövlət proqramları çərçivəsində xarici ölkələrdə əldə etdikləri ali təhsil üzrə kvalifikasiyalar;

2.7.2. Nazirliklə xarici dövlətlərin səlahiyyətli orqanları arasında imzalanmış beynəlxalq müqavilələr əsasında tələbə mübadiləsinə dair hökumətlərarası təqaüd proqramları çərçivəsində əldə edilmiş kvalifikasiyalar;

2.7.3. beynəlxalq müqavilələr çərçivəsində Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən xarici ali təhsil müəssisələri tərəfindən verilmiş kvalifikasiyalar;

2.7.4. dövlət tərəfindən müəyyən edilmiş təhsil qrantı proqramları və hökumətlərarası təqaüd proqramları çərçivəsində təhsil alacaq əcnəbi və vətəndaşlığı olmayan şəxslərin xarici ölkələrdə əldə etdikləri ali təhsil üzrə kvalifikasiyalar.

2.8. Ərizəçinin bu Qaydaların 2.4-cü bəndində qeyd edilən sənədlərlə yanaşı, akademik və peşə hazırlıq səviyyəsini və təcrübəsini təsdiq edən əlavə sənədlər təqdim etmək hüququ vardır.

## 3. Tanınmaya dair müraciətə baxılması

3.1. Ərizəçinin müraciətinə bu Qaydaların 2.4-cü bəndində qeyd edilən sənədlər TMİS-ə bu Qaydalarla müəyyən edilmiş tələblərə uyğun olaraq daxil edildiyi gündən etibarən ən geci 3 (üç) ay müddətində baxılır.

3.2. İlk növbədə ərizəçinin təqdim etdiyi sənədlərin rəsmi məlumat mənbələri (Azərbaycan Respublikasının və xarici ölkələrin aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatları və sistemləri, təhsil sənədlərinin tanınması üzrə beynəlxalq şəbəkə, xarici ölkələrin aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri, xarici ölkələrin ali təhsil müəssisələrinin ali təhsilə dair məlumat bazaları və s.) vasitəsilə doğruluğu müəyyən edilir. Apostil reyestri mövcud olan ölkələr tərəfindən verilmiş apostil şəhadətnaməsinin (möhürünün) həqiqiliyi həmin reyestr vasitəsilə yoxlanılır.

3.3. Ərizəçinin müraciətinə baxılması üçün Agentlik aşağıdakı məlumatların yoxlanılmasını həyata keçirir:

3.3.1. ərizəçinin fərdi məlumatlarındakı (soyadı, adı, atasının adı, yaşayış ünvanı, qeydiyyat ünvanı, vətəndaşlığı və s.) dəyişiklik;

3.3.2. ərizəçinin təhsilalma tarixi;

3.3.3. ərizəçinin hərbi mükəlləfiyyəti;

3.3.4. ərizəçinin əmək fəaliyyəti;

3.3.5. ərizəçinin sərhədkeçmə qeydiyyatı.

3.4. Bu Qaydaların 2.4-cü bəndində qeyd edilən sənədlərin və 3.3-cü bəndində qeyd edilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) və ya təhsil müəssisəsindən tələb olunur və yaərizəçi tərəfindən kağız daşıyıcıda (elektron sənəd formasında) 20 (iyirmi) gün müddətində təqdim edilir.

3.5. Aşağıdakı hallar barədə ərizəçinin müraciəti Agentliyə daxil olduğu gündən 10 (on) gün müddətində ərizəçinin şəxsi kabinetinə məlumat göndərilir:

3.5.1. təqdim olunmuş sənədlərdə (məlumatlarda) çatışmazlıq və ya ziddiyyət aşkar olunduqda;

3.5.2. sənədlər bu Qaydalarla müəyyən edilmiş tələblərə uyğun təqdim olunmadıqda;

3.5.3. bu Qaydaların 3.4-cü bəndinin ikinci cümləsində qeyd olunan halda.

3.6. Agentlik tanınma üçün yerli və xarici müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb edə bilər.

3.7. "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən qaçqın və məcburi köçkün statusu olan ərizəçi tərəfindən bu Qaydaların 2.4-cü bəndində qeyd edilən sənədlərdən birinin və ya bir neçəsinin təqdim edilməsi mümkün olmadıqda, Agentlik həmin sənədə (və ya sənədlərə) dair ərizəçinin ərizədə qeyd etdiyi məlumatlar əsasında qiymətləndirməni aparır.

3.8. Tanınma ilə bağlı Agentlik aşağıdakı qərarlardan birini qəbul edir:

3.8.1. ali təhsilə aid kvalifikasiyanın akademik və peşə tanınması;

3.8.2. ali təhsilə aid kvalifikasiyanın akademik tanınması (tam, qismən, şərti və ya alternativ tanınması);

3.8.3. ali təhsilə aid kvalifikasiyanın peşə tanınması;

3.8.4. ali təhsilə aid kvalifikasiyanıntanınmasından imtina edilməsi.

3.9. Bu Qaydaların 3.8.1 - 3.8.3-cü yarımbəndlərində nəzərdə tutulan qərarlar tanınma şəhadətnaməsi ilə rəsmiləşdirilir və həmin qərarın qəbul edildiyi tarixdən 3 (üç) gün müddətində ərizəçinin şəxsi kabinetinə göndərilir.

3.10. Aşağıdakı hallarda kvalifikasiyanın tanınmasından imtina edilir:

3.10.1. bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulan ümumi tələblərə riayət olunmadıqda;

3.10.2. ərizəçinin müraciət etdiyi kvalifikasiya ilə Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiya arasında əhəmiyyətli fərq aşkar olunduqda və ya həmin kvalifikasiya Azərbaycan Respublikasında mövcud olmadıqda və qismən, şərti və ya alternativ tanınma mümkün olmadıqda;

3.10.3. peşə tanınmasına münasibətdə bu Qaydaların 6.2-ci bəndinə uyğun olaraq, ərizəçi sınaq imtahanında müvəffəqiyyət qazanmadıqda.

3.11. Tanınmadan imtina edildiyi halda bu barədə qərar səbəbləri göstərilməklə həmin qərarın qəbul edildiyi tarixdən 3 (üç) gün müddətində ərizəçinin şəxsi kabinetinə göndərilir.

## 4. Tanınmaya dair tələblər

4.1.Tanınma üzrə ümumi tələblər aşağıdakılardır:

4.1.1. müvafiq kvalifikasiyaya dair sənədin əldə olunduğu təhsil müəssisəsinin fəaliyyət göstərdiyi ölkədə səlahiyyətli keyfiyyət təminatı qurumu tərəfindən akkreditasiyadan keçməsi və dövlət lisenziyasının olması;

4.1.2. müvafiq kvalifikasiyaya dair sənədin autentik (həqiqi) olması;

4.1.3. müvafiq kvalifikasiyanın verildiyi ölkənin kvalifikasiyalar çərçivəsində yerinin göstərilməsi;

4.1.4. Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi (bundan sonra - Milli Kvalifikasiyalar Çərçivəsi) üzrə orta ixtisas təhsili, bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələrinə uyğun kvalifikasiyalara münasibətdə ərizəçinin hər bir tədris ili ərzində müvafiq kvalifikasiya üzrə nəzərdə tutulmuş təhsilin normativ müddətinin azı yarısı qədər təhsil aldığı ölkənin ərazisində olması (tibb və səhiyyə ixtisasları üzrə təhsilin normativ müddətində təhsil aldığı ölkənin ərazisində olması);

4.1.5. Milli Kvalifikasiyalar Çərçivəsi üzrə orta ixtisas təhsili, bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələrinə uyğun kvalifikasiyalara münasibətdə tədris müddətinin azı üçdə ikisində ənənəvi təlim metodlarına əsaslanan formal təhsilin əldə olunması (tibb və səhiyyə ixtisasları üzrə təhsilin normativ müddətində ənənəvi təlim metodlarına əsaslanan formal təhsilin əldə olunması).

4.2. Ali təhsil üzrə kvalifikasiyaların akademik və peşə tanınması zamanı aşağıdakı meyarlar əsasında əhəmiyyətli fərqin mövcud olub-olmaması müəyyənləşdirilir:

4.2.1. kvalifikasiyanın aid olduğu təhsil səviyyəsi;

4.2.2. əldə olunmuş təlimin (tamamlanmış kreditlərin) həcmi;

4.2.3. yekun attestasiyanın nəticəsi və ya ümumi orta müvəffəqiyyət göstəricisi;

4.2.4. kvalifikasiyanın istiqaməti (profili);

4.2.5. təlimin nəticələri.

4.3. Tədris müddətində tədris planında göstərilən fənlər üzrə yaranmış akademik borcların növbəti tədris ilində aradan qaldırılması və tədris proqramının tərkib hissəsi olaraq xarici ölkədə tədqiqat aparmaq və ya təcrübə keçmək faktı aidiyyəti təhsil müəssisəsinə göndərilən sorğu əsasında əldə olunmuş müvafiq arayışla təsdiq olunduğu halda, qiymətləndirmə zamanı nəzərə alınır.

4.4. Tanınma zamanı bu Qaydaların 4.1.4-cü yarımbəndinin tələbi əcnəbilərə şamil edilmir.

## 5. Akademik tanınma

5.1. Akademik tanınma ərizəçiyə Azərbaycan Respublikasında ali təhsil pilləsində təhsilini davam etdirmək hüququnun verilməsi məqsədilə aparılır.

5.2. Akademik tanınma üzrə ümumi tələblər nəzərə alınmaqla, kvalifikasiyanın Milli Kvalifikasiyalar Çərçivəsinə uyğunluğu aşağıdakı qaydada müəyyən edilir:

5.2.1. müvafiq kvalifikasiya üzrə təlimin nəticələrinin Azərbaycan Respublikasındakı uyğun kvalifikasiyalar (təhsil proqramları) üzrə nəzərdə tutulmuş təlimin nəticələrinə uyğunluğu;

5.2.2. kvalifikasiyaların Milli Kvalifikasiyalar Çərçivəsindəki səviyyə deskriptorları ilə uyğunluğu.

5.3. Akademik tanınma nəticəsində kvalifikasiya Milli Kvalifikasiyalar Çərçivəsi üzrə 4-cü və 5-ci səviyyələrə uyğun olarsa, həmin ərizəçiyə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində (əsas (baza ali) tibb təhsilinə) təhsilini davam etdirmək hüququ verilir.

5.4. Akademik tanınma nəticəsində kvalifikasiya Milli Kvalifikasiyalar Çərçivəsi üzrə 6-cı və 7-ci səviyyələrə uyğun olarsa, həmin ərizəçiyə Azərbaycan Respublikasında ali təhsilin növbəti səviyyələri üzrə təhsilini davam etdirmək hüququ verilir.

5.5. Akademik tanınma zamanı ərizəçinin təhsil müddətində əldə etdiyi kreditlərin ümumi sayının AKTTS üzrə təhsilin orta ixtisas təhsil pilləsi, bakalavriat (əsas (baza ali tibb təhsili) və magistratura səviyyələri üçün müəyyənləşdirilmiş minimal kredit sayına uyğunluğu müəyyən edilir.

5.6. Kvalifikasiyanın istiqamətinin (profilinin) qiymətləndirilməsi təlimin istiqamətinin (nəzəri və ya praktiki olmasının) və ixtisas xüsusiyyətlərinin kvalifikasiyanın istiqamətinə (profilinə) uyğunluğunun müəyyən edilməsini nəzərdə tutur və tanınma zamanı ərizəçiyə təhsilini növbəti səviyyədə davam etdirmək hüququ verən ixtisas istiqamətlərinə təsir edir. Kvalifikasiyanın istiqaməti (profili) Agentlik tərəfindən təsdiq edilir.

5.7. Ərizəçinin akademik tanınma üçün müraciət etdiyi kvalifikasiya ilə Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiyanın təlim nəticələri arasında əhəmiyyətli fərq aşkar olunmadıqda və bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulan tələblər ödənildikdə, ərizəçinin kvalifikasiyası tam tanınır və tanınma şəhadətnaməsində ərizəçiyə növbəti təhsil pilləsində (səviyyəsində) təhsilini davam etdirmək hüququ verilir.

5.8. Ərizəçinin tanınma üçün müraciət etdiyi kvalifikasiya ilə Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiya arasında əhəmiyyətli fərq aşkar olunduqda və ya həmin kvalifikasiya Azərbaycan Respublikasında mövcud olmadıqda, qismən, şərti və alternativ tanınma barədə qərar qəbul oluna bilər.

5.9. Xaricdə natamam ali təhsil alanlar təhsilinin qalan hissəsini Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində davam etdirmək üçün ilkin olaraq kvalifikasiyalarının qismən tanınması üçün müraciət etməlidirlər. Ərizəçinin kvalifikasiyası qismən tanındıqda, o, Azərbaycan Respublikasının ali təhsil müəssisələrindən birinə köçürülmək üçün müraciət etmək hüququnu əldə edir.

5.10. AKTTS üzrə ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələri üçün müəyyən edilmiş minimal kredit sayından az toplayan ərizəçinin kvalifikasiyası şərti tanınır və həmin ərizəçiyə ixtisaslarına uyğun Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində mühazirələrdə (praktik məşğələlərdə) iştirak etməklə əhəmiyyətli fərqi aradan qaldırmaq hüququ verilir. Ərizəçi kvalifikasiyanın tanınmayan hissəsi üzrə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində qiymətləndirmədə (sınaq imtahanında iştirak etməklə və ya eksternat qaydada imtahan verməklə) müvəffəqiyyət əldə etdikdən sonra əvvəlki müraciətinin yenilənməsi barədə müraciət edir və müraciətinə xidmət haqqı ödənilmədən yalnız əvvəl kvalifikasiyanın tanınmayan hissəsinin sonrakı mərhələdə əldə edilməsi üçün müvafiq sənədləri əlavə edir və onun kvalifikasiyası akademik tanınır.

5.11. Xarici dövlətin ali təhsilə aid kvalifikasiyası Azərbaycan Respublikasında mövcud olmadıqda, kvalifikasiyanın xarici dövlətdə aid olduğu təhsil pilləsindən (səviyyəsindən) daha aşağı pillə (səviyyə) üzrə və ya eyni pillə (səviyyə) üzrə, lakin fərqli kvalifikasiyaya uyğun olaraq alternativ tanınması həyata keçirilir və ərizəçiyə təhsilini növbəti pillədə (səviyyədə) davam etdirmək hüququ verilir.

## 6. Peşə tanınması

6.1. Peşə tanınması yalnız ali təhsil üzrə kvalifikasiyalara münasibətdə və Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən əmək müqaviləsi bağlanılarkən işçinin əmək funksiyasının xüsusiyyətlərinə uyğun olan peşə hazırlığının və ya təhsilin olması zəruri sayılan hallarda tətbiq edilir.

6.2. Bu Qaydaların əlavəsində nəzərdə tutulan peşələrə aid ixtisasların peşə tanınması zamanı ərizəçinin müvafiq kvalifikasiya üzrə peşə kompetensiyalarının Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiya üzrə nəzərdə tutulmuş peşə kompetensiyalarının tələblərinə uyğunluğu müəyyən edilir. Müəllimlik, mühəndislik və hüquq ixtisasları üzrə ərizəçinin Agentliyin sifarişi ilə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin (bundan sonra - DİM) təşkil etdiyi sınaq imtahanında müvəffəqiyyət qazanması (keçid balının toplanması) tələb olunur. Sınaq imtahanının məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı Agentliklə razılaşdırılmaqla DİM tərəfindən müəyyənləşdirilir. Ərizəçinin bu Qaydaların əlavəsində nəzərdə tutulan tibb və səhiyyə ixtisasları üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müəyyən etdiyi tələblərə uyğunluğu isə bu sahədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq qaydaya əsasən müəyyən edilir.

6.3. Bu Qaydaların 6.2-ci bəndinin tələbi aşağıdakı kvalifikasiyalara şamil edilmir:

6.3.1. bu Qaydaların 2.7.1-2.7.4-cü yarımbəndləri üzrə əldə olunmuş kvalifikasiyalar;

6.3.2. "TimesHigherEducationWorldUniversityRankings", "QS WorldUniversityRankings" və "AcademicRanking of WorldUniversities (ShanghaiRanking)" beynəlxalq reytinq qurumlarının tərtib etdiyi sıralamaların azı birində ərizəçinin qəbul olunduğu ildə ilk 500 pillədə yer alan təhsil müəssisələrindən əldə edilmiş kvalifikasiyalar.

6.4. Bu Qaydaların 6.3.2-ci yarımbəndində qeyd edilən beynəlxalq reytinq qurumlarının tərtib etdiyi sıralamalara istinadən təhsil müəssisələrinin siyahısı Agentliyin rəsmi internet səhifəsində yerləşdirilir və mütəmadi olaraq yenilənir.

6.5. Bu Qaydaların 4.2-ci bəndinə (4.2.4-cü yarımbənd istisna olmaqla) uyğun olaraq ərizəçinin kvalifikasiyası ilə Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiya arasında əhəmiyyətli fərq aşkar edilmədikdə və bu Qaydaların 6.2-ci bəndində nəzərdə tutulan peşələr üzrə ərizəçi sınaq imtahanlarında müvəffəqiyyət qazanması və kvalifikasiya üzrə nəzərdə tutulmuş peşə kompetensiyalarının tələblərinə uyğunluğunun təmin olunması barədə DİM-in və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq məlumatı əsasında, ərizəçinin kvalifikasiyasının peşə tanınması barədə qərar qəbul edilir.

## 7. Tanınma şəhadətnaməsi

7.1. Ərizəçinin ali təhsilə aid kvalifikasiyasının tanınmasına dair qərar qəbul edildikdə, tanınma şəhadətnaməsi qərarın qəbul edildiyi tarixdən etibarən 5 (beş) gün müddətində hazırlanır.

7.2. Tanınma şəhadətnaməsi elektron sənəddir və TMİS-də elektron sənəd formasında "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq yaradılır.

7.3. Tanınma şəhadətnamələri barədə məlumat Agentliyin rəsmi internet səhifəsində yerləşdirilir.

7.4. Elektron sənəd formasında təqdim edilmiş tanınma şəhadətnaməsinin həqiqiliyi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlanıla bilər.

7.5. TMİS vasitəsilə əldə edilmiş tanınma şəhadətnaməsinin kağız daşıyıcıda olan surətinin təsdiqi "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

7.6. Tanınma şəhadətnaməsi Agentliyin İdarə Heyəti sədrinin (və ya sədr müvəqqəti olmadıqda, onun səlahiyyətlərini icra edən şəxsin) elektron imzası ilə təsdiq edilir.

7.7. Agentlik tərəfindən təsdiq edilmiş tanınma şəhadətnaməsi ərizəçi üçün yaradılmış şəxsi kabinetdə yerləşdirilir.

7.8. Tanınma şəhadətnaməsində aşağıdakı məlumatlar əks olunmalıdır:

7.8.1. şəhadətnamənin nömrəsi (sistem tərəfindən verilir);

7.8.2. tanınma üçün müraciət etmiş şəxsin indentifikasiya məlumatları (soyadı, adı, atasının adı və doğum tarixi) və FİN kod;

7.8.3. akademik məlumatlar:

7.8.3.1. təhsil pilləsi;

7.8.3.2. təhsil müəssisəsinin adı;

7.8.3.3. ixtisasın adı;

7.8.3.4. təhsil sənədinin verilmə tarixi;

7.8.4. tanınmanın növü:

7.8.4.1. akademik tanınma (tam, qismən, şərti, alternativ);

7.8.4.2. peşə tanınması;

7.8.5. tanınmanın verdiyi hüquqlar:

7.8.5.1. təhsilin növbəti pilləsinə qəbul olunmaq hüququ verir;

7.8.5.2. təhsilin növbəti səviyyəsinə qəbul olunmaq hüququ verir;

7.8.5.3. Azərbaycan Respublikasının ali təhsil müəssisələrindən birinə köçürülmək üçün müraciət etmək hüququ verir;

7.8.5.4. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində mühazirələrdə (praktik məşğələlərdə) iştirak etməklə əhəmiyyətli fərqi aradan qaldırmaq hüququ verir;

7.8.5.5. peşə tanınması ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququ verir;

7.8.6. şəhadətnamənin verildiyi tarix (sistem tərəfindən verilir).

7.9. Tanınma şəhadətnaməsində bütün məlumatlar Azərbaycan dilində yazılır.

## 8. Yekun müddəalar

8.1. Tanınmanın nəticələrindən şikayət inzibati qaydada və (və ya) məhkəmə qaydasında verilə bilər.

8.2. Tanınmanın nəticələri ilə bağlı şikayətlərə baxılması üçün Nazirlik tərəfindən Apellyasiya Komissiyası yaradılır. Apellyasiya Komissiyasının tərkibini və səlahiyyətlərini Nazirlik müəyyən edir.

8.3. Ərizəçi Apellyasiya Komissiyasına "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 73.1-ci və 73.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərdə şikayət edə bilər. Müraciətə Apellyasiya Komissiyasında 10 (on) gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

8.4. Ərizəçi Apellyasiya Komissiyasının hərəkətlərindən (hərəkətsizliyindən), eləcə də tanınma ilə bağlı qərarlarından inzibati və (və ya) məhkəmə qaydasında şikayət verə bilər.

*"Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"na əlavə*

### Peşə tanınması zamanı sınaq imtahanlarının keçirilməsi tələb olunan ixtisasların SİYAHISI

| Sıra №-si | İxtisasların (proqramların) şifri və adı | |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | 050102 | Biologiya müəllimliyi |
| 2. | 050103 | Coğrafiya müəllimliyi |
| 3. | 050104 | Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə) |
| 4. | 050105 | Fizika müəllimliyi |
| 5. | 050107 | İbtidai sinif müəllimliyi |
| 6. | 050108 | İnformatika müəllimliyi |
| 7. | 050109 | Kimya müəllimliyi |
| 8. | 050110 | Kimya və biologiya müəllimliyi |
| 9. | 050111 | Korreksiyaedici təlim |
| 10. | 050112 | Məktəbəqədər təhsil |
| 11. | 050114 | Riyaziyyat müəllimliyi |
| 12. | 050115 | Riyaziyyat və informatika müəllimliyi |
| 13. | 050116 | Tarix müəllimliyi |
| 14. | 050117 | Tarix və coğrafiya müəllimliyi |
| 15. | 050120 | Texnologiya müəllimliyi |
| 16. | 050121 | Xarici dil müəllimliyi (dillər üzrə) |
| 17. | 050206 | Hüquqşünaslıq |
| 18. | 050601 | Aerokosmik mühəndislik |
| 19. | 050603 | Aviasiya təhlükəsizliyi mühəndisliyi |
| 20. | 050605 | Dəniz naviqasiyası mühəndisliyi |
| 21. | 050606 | Ekologiya mühəndisliyi |
| 22. | 050613 | Hava nəqliyyatının hərəkətinin təşkili |
| 23. | 050614 | Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi |
| 24. | 050617 | İnşaat mühəndisliyi |
| 25. | 050633 | Nəqliyyat tikintisi mühəndisliyi |
| 26. | 050635 | Qida mühəndisliyi |
| 27. | 050639 | Uçuş mühəndisliyi |
| 28. | 050640 | Yanğın təhlükəsizliyi mühəndisliyi |
| 29. | 050704 | Baytarlıq təbabəti |
| 30. | 050802 | Əczaçılıq |
| 31. | 050803 | Fizioterapiya və tibbi reabilitasiya |
| 32. | 050808 | Tibb bacısı işi |
| 33. | 050901 | Hərbi tibb |
| 34. | 050902 | İctimai səhiyyə |
| 35. | 050903 | Stomatologiya |
| 36. | 050904 | Tibb |
| 37. | 060102 | Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə) |
| 38. | 060103 | Xarici dil müəllimliyi (dillər üzrə) |
| 39. | 060104 | Fizika müəllimliyi |
| 40. | 060105 | Riyaziyyat müəllimliyi |
| 41. | 060107 | Texnologiya müəllimliyi |
| 42. | 060109 | Biologiya müəllimliyi |
| 43. | 060110 | Kimya müəllimliyi |
| 44. | 060111 | Tarix müəllimliyi |
| 45. | 060112 | Coğrafiya müəllimliyi |
| 46. | 060113 | İnformatika müəllimliyi |
| 47. | 060115 | İbtidai sinif müəllimliyi |
| 48. | 060116 | Korreksiyaedici təlim |
| 49. | 060117 | Məktəbəqədər təlim və tərbiyə |
| 50. | 060119 | Pedaqogika |
| 51. | 060212 | Hüquqşünaslıq |
| 52. | 060613 | Avianəqliyyat istehsalatının təşkili mühəndisliyi |
| 53. | 060614 | Aviasiya texnikası avadanlıqlarının istismarı mühəndisliyi |
| 54. | 060615 | Hava nəqliyyatının hərəkətinin idarə olunması mühəndisliyi |
| 55. | 060616 | Uçuş mühəndisliyi |
| 56. | 060617 | Hava nəqliyyatında texnoloji proseslərin və istehsalatın təhlükəsizliyi mühəndisliyi |
| 57. | 060618 | Dəniz texnikası və texnologiyası mühəndisliyi |
| 58. | 060619 | Dəniz texnikası və avadanlıqlarının istismarı mühəndisliyi |
| 59. | 060620 | Gəmiçilik və gəmilərin hərəkətinin idarə edilməsi |
| 60. | 060621 | Dəmir yolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi |
| 61. | 060634 | İnşaat mühəndisliyi |
| 62. | 060636 | Nəqliyyat tikintisi mühəndisliyi |
| 63. | 060642 | Qida məhsulları mühəndisliyi |
| 64. | 060648 | Biotibbi texnika mühəndisliyi |
| 65. | 060649 | Ekologiya mühəndisliyi |
| 66. | 060650 | Yanğın təhlükəsizliyi mühəndisliyi |
| 67. | 060651 | Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi |
| 68. | 060652 | Kosmik texnika və texnologiyalar mühəndisliyi |

# İlahiyyat İnstitutunun "Din araşdırmaları" jurnalının növbəti sayı nəşr olunub

**Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan "Din araşdırmaları" jurnalının 10-cu sayı dərc edilib. İldə iki dəfə dərc olunan jurnalın yeni sayında 16 məqalə yer alıb.**




Din psixologiyası, din sosiologiyası, təfsir, kəlam, fəlsəfə, İslam hüququ və tarix kimi bölmələrdə yer alan elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilib. Jurnalda Azərbaycan, türk və ərəb dillərində məqalələr dərc olunub.

Jurnalın əsas məqsədi psixologiya və fəlsəfə üzrə, o cümlədən dinin tarixi, fəlsəfəsi, din sosiologiyası və din psixologiyası üzrə Azərbaycan, rus, ingilis, türk və ərəb dillərində hazırlanmış müstəqil tədqiqatları məqalə və resenziya kimi dərc edərək, beynəlxalq aləmdə bu istiqamətdə məlumatların, araşdırmaların artmasına töhfə verməkdir. "Din araşdırmaları" jurnalı qeyd edilən yöndə tədqiqat aparan alimlər, ilahiyyatçılar, dinşünaslar, fəlsəfəçilər, o cümlədən bu sahəyə marağı olan tələbələr, oxucular və qurumlar üçün nəzərdə tutulub.

"Din araşdırmaları" jurnalının redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Pakistan, Qazaxıstan, İran və İsveçrə kimi ölkələrdə fəaliyyət göstərən nüfuzlu alimlərdən ibarətdir. Bu alimlər tərəfindən jurnala daxil olan məqalələrə anonimlik qorunmaqla rəy verilir.

Məlumat üçün bildirək ki, "Din araşdırmaları" jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsi istiqamətində bir sıra işlər görülür. Bununla bağlı institut tərəfindən müasir standartlara, beynəlxalq jurnallarda məqalələrin yazılması və yayımlanması tələblərinə uyğun olaraq jurnalın rəsmi internet saytı hazırlanıb və artıq fəaliyyət göstərir. Jurnalın növbəti sayından etibarən alimlər məqalələrini rəsmi internet saytı vasitəsilə göndərəcək və araşdırmalarının statuslarını saytda yaratdıqları profil vasitəsilə izləyə biləcəklər.

Qeyd edək ki, jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb.

"Din araşdırmaları" jurnalı 2020-ci ildən AAK tərəfindən fəlsəfə və psixologiya üzrə elmi məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilib.

*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# 10-cu dəfə...

## Ağdamın "Qarabağ" klubu pley-off-a yüksəldi, "Sabah" və "Neftçi" isə mübarizəni dayandırdı



**UEFA Avropa Liqası, 3-cü təsnifat mərhələsinin cavab oyunu**

**HİK (Finlandiya) - "Qarabağ" (Azərbaycan) - 1:2 (ilk oyun 1:2)**

***Qollar:*** Santeri Hostikka, 10 (1:0), Toral Bayramov, 45+3-pen (1:1), Yassin Benzia, 55 (1:2)

***Baş hakim:*** Villi Delayod (Fransa)

*"Bolt Arena"*

Ağdamın "Qarabağ" komandası UEFA Avropa Liqasının 3-cü təsnifat mərhələsinin cavab oyununda Finlandiyada HİK-ə qalib gələrək (2:1) adını pley-off mərhələsinə yazdırıb.

Görüşün ilk dəqiqələrindən "Qarabağ" topu rəqibə vermədi. Daha çox qısa ötürmələrə üstünlük verərək rəqibi topsuz qaçmağa məcbur etdi. Xüsusilə hücumlar HİK-in sağ cinahı tərəfdən təşkil edildi. Rəqibin müdafiədən oyun qurmasının qarşısını aldı. Ancaq meydan sahibləri uzun ötürmələrə üstünlük verməyə məcbur oldular. Xüsusilə müdafiənin arxasına atılan toplarla əks-hücum yaxalamağa çalışdılar. Komandamızın qapıçısı Şahruddin Məhəmmədəliyevə isə deməyə artıq söz tapılmır. Yenə onun etdiyi kobud səhv qapımızda qolla nəticələndi. İmdadımıza rəqibin aldığı qırmızı vərəqə yetdi. Bu andan etibarən meydan sahiblərinin 2-ci zonada mübarizəni dayandırıb daha çox müdafiə taktikası seçdiyini gördük. Belə olan halda həm oyun olaraq, həm də keyfiyyət baxımından HİK-i üstələyən "Qarabağ" süni qazona rəğmən vurduğu qollarla qalib gəlməyi bacardı-2:1.

"Qarabağ"ın pley-off mərhələsində rəqibi Sloveniyanın "Olimpiya" komandası olacaq.

Bu qələbə sayəsində "Qarabağ" ardıcıl 10-cu mövsümdür ki, avrokuboklarda qrup mərhələsini təmin edir. Belə ki, əgər ağdamlılar avroliqada "Olimpiya" səddini aşa bilməsə belə birbaşa Konfrans Liqasının qrup mərhələsinə vəsiqə qazanacaqlar.

**UEFA Konfrans Liqası, 3-cü təsnifat mərhələsinin cavab oyunu**

**Partizan" (Serbiya) - "Sabah" (Azərbaycan) - 2:0**

*(Penaltilər seriyası - 5:4) (ilk oyun - 0:2)*

***Qollar:*** Mateus Saldanya, 30 (1:0), Bibras Natxo, 58 (2:0)

***Baş hakim:*** Bartoş Frankovski (Polşa)

*"Partizan" stadionu*

UEFA Konfrans Liqasında mübarizə aparan komandalarımızdan "Sabah" 3-cü təsnifat mərhələsinin cavab oyununda Serbiyada "Partizan"a 0:2 hesabı ilə uduzub. İlk görüşdə Azərbaycan təmsilçisi eyni hesabla qalib gəldiyi üçün əlavə vaxt oynanılıb və bu da qolsuz başa çatdığından penaltilər seriyasına ehtiyac duyulub. Burada daha dəqiq olan "Partizan" adını növbəti mərhələyə yazdırıb.

Bu matçı meydan sahiblərinə "Sabah"ın baş məşqçisi Murad Musayev verdi. Masazır təmsilçisi hakimin start fitindən sonra topu rəqibə verərək daha çox topsuz oyuna üstünlük taktikası seçdi. İkinci zonanı bütünlüklə rəqibə verən Musayevin komandası əks-hücum planını tətbiq etməyə çalışdı. Lakin qazanılan toplardan sonra zamanında hücumda çoxala bilməmək, cinahlara düzgün açılmamaq komandamızda bu strategiyanın reallaşmasına maneə törətdi. "Partizan" daha təcrübəli oynadı. "Sabah"da Yusif İmanov perspektivli qapıçıdır. Amma avrokuboklarda hədəf qrup mərhələsinə yüksəlməkdirsə, mütləq təcrübəli qapıçıya ehtiyac yaranır. Ancaq rəqibin vurduğu 2-ci qoldakı kobud səhv komandamızda psixoloji gərginlik yaratdı. Hər bir halda avrokuboklarda debüt mövsümündə bir mərhələ adlayan komandamız üçün Belqraddakı matç böyük təcrübə oldu.

**UEFA Konfrans Liqası, 3-cü təsnifat mərhələsinin cavab oyunu**

**"Beşiktaş" (Türkiyə) - "Neftçi" (Azərbaycan) - 2:1 (ilk oyun - 3:1)**

***Qollar:*** Emin Mahmudov, 35 (0:1), Vensan Abubakar, 57 (1:1), Cekson Muleka, 71 (2:1)

***Baş hakim:*** Julian Veynberger (Avstriya)

*"Beşiktaş Arena"*

Konfrans Liqasındakı digər təmsilçimiz "Neftçi" İstanbulda Türkiyə klubu "Beşiktaş"ın qonağı idi. Bakıda gerçəkləşən birinci matçda 1:3 hesabı ilə məğlub olan "Neftçi" gözlənilmədən "Beşiktaş" stadionunda ilk qolu vuran tərəf oldu. 36-cı dəqiqədə kapitan Emin Mahmudov hesabı açdı. Bu, komandamızı ümidləndirsə də, üstünlüyü qoruyub saxlaya bilmədi. Meydan sahibləri fasilədən sonra geridönüş etməyi bacarıblar. Əvvəlcə 57-ci dəqiqədə Vensan Abubakar dəqiq zərbə ilə toru silkələdi. 71-ci dəqiqədə Cekson Muleka komandasının qələbə qoluna imza atdı. Beləliklə, cavab matçında rəqibinə 1:2 hesabı ilə məğlub olan "Neftçi" avrokuboklarla vidalaşdı.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
**gəmiləri üçün nasosların satın alınması məqsədilə**
***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 24 avqust 2023-cü il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
**gəmiləri üçün separatorların satın alınması məqsədilə açıq müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 avqust 2023-cü il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016**

***Tender komissiyası***


# Bəzi rayonlarda fasilələrlə yağış yağacaq, dolu düşəcək

Azərbaycanda avqustun 19-na gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Əsasən günün birinci yarısında bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 31-36° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi norma daxilində - 760 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 25-26°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 34-39° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 26-31° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzurda - Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 23-28° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin günün ikinci yarısında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 32-37° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 29-34° isti, dağlarda gecə 11-16°, gündüz 21-26° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən qərb rayonlarında intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 33-38° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 30-34° isti, dağlarda gecə 13-16°, gündüz 25-28° isti olacaq.


## "Bərdə Aqrotex Servis" ASC-nin səhmdarlarının nəzərinə!

28 sentyabr 2023-cü il tarixdə "Bərdə Aqrotex Servis" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə aşağıdakı məsələlər müzakirə olunacaqdır:
*1. 2022-ci ilin təsərrüfat ilinin yekun illik hesabatı.*
*2. Müəssisədə olan köhnə binaların təmiri və icarəyə verilməsi.*

**Ünvan: Bərdə şəhəri, H.Əliyev prospekti 1**
**Tel: (050) 575-31-00**

***Rəhbərlik***



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**
**Tiraj 5448**
**Sifariş 2059**
**Qiyməti 40 qəpik**